

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim*
*Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 34 (24.469)

*6 sentyabr 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Azərbaycan-Çin:
## səmimi, etibarlı dostlar, hərtərəfli strateji tərəfdaşlar



*Azərbaycanın düşünülmüş, praqmatik, çoxvektorlu xarici siyasət doktrinası dünyanın həm siyasi, həm iqtisadi güc mərkəzləri, eləcə də nüfuzu böyük ölkələri ilə hərtərəfli münasibətlər qurması üçün geniş imkanlar açır. Bu baxımdan dünyanın ikinci ən güclü iqtisadiyyatına malik, Alıcılıq Qabiliyyəti Paritetinə (AQP) əsaslanan ÜDM göstəricisinə görə isə birinci yerdə qərarlaşan Çinlə əlaqələr həm uzaq coğrafiyaları yaxınlaşdırmaq üçün, həm də uzaq gələcəyə dair mühüm perspektivləri ilə seçilir. Azərbaycan-Çin faydalı əməkdaşlığında Prezident İlham Əliyevin bu ölkəyə səfərləri, eyni zamanda Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) zirvə toplantılarında dövlət başçımızın mütəmadi iştirakı xüsusi rol oynayır. Avqustun 30-da Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Çinə işgüzar səfərinin proqramı da yeni əməkdaşlıq imkanlarının dəyərləndirilməsi, respublikamızın çoxtərəfli dialoqa töhfəsinin ifadəsi baxımından zəngin oldu.*

Azərbaycanla Çin arasında diplomatik əlaqələr 33 il əvvəl, daha dəqiq desək, 1992-ci il aprel ayının 2-də qurulub. Son illərdə ölkələrarası münasibətlər yüksək inkişaf yoluna qədəm qoyub, müxtəlifsəviyyəli işgüzar səfərlər zamanı yeni əməkdaşlıq istiqamətləri ortaya çıxarılıb. Bu baxımdan Azərbaycan-Çin diplomatik əlaqələrində son iki ili xüsusi əhəmiyyətə malik dövr kimi xarakterizə etmək olar. Belə ki, ötən il iyulun 3-də liderlər tərəfindən imzalanan Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə ölkələrarası qarşılıqlı etimadın və əməkdaşlığın təməlləri daha da möhkəmləndirilib, dünya iqtisadi sisteminin mənzərəsini dəyişdirə biləcək vacib strateji hədəflər müəyyənləşdirilib. Bu il aprelin 23-də Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" isə hər iki ölkənin bir-biri üçün prioritet təşkil edən sahələri etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiqləməklə bu tərəfdaşlığı yeni, daha yüksək mərhələyə – hərtərəfli strateji tərəfdaşlığa daşıyıb. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev sentyabrın 1-də Çinin Tiencin şəhərində keçirilən "ŞƏT plyus" formatında görüşdə çıxışı zamanı da ilk olaraq məhz bu məqama diqqəti çəkdi: ***"Azərbaycanla Çin arasında səmimi dostluq münasibətləri və hərtərəfli strateji tərəfdaşlıq bağları mövcuddur. Bu əlaqələrin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir. Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açdı".***

Səhifə ⇨ 3

### Azərbaycanın böyük və qüdrətli LİDERİ



Səhifə ⇨ 4

### Naxçıvanda qəbul imtahanlarında yüksək nəticə göstərmiş məzunlarla görüş keçirilib



Səhifə ⇨ 5

### Naxçıvanda son 30 ilin ən böyük təhsil uğuru



Səhifə ⇨ 7

### "Ərbabın iş yeri" və ona bitişik tarixi bina bərpa olunacaq



Səhifə ⇨ 8

### Tarixə söykənən Cəlilkənd



Səhifə ⇨ 10

### Naxçıvanın incisi Göygöl



Səhifə ⇨ 12

# İşıqlı sabahlara aparan yol



***1980-ci illərə qayıdıram. Mən onda uşaq idim. Əzəldən xalqımızın gözəl bayramı olan Novruzda yaşlıları ziyarət etmək mütləq hal sayılırdı. Bizim də uzaq qohumlardan biri olan Leylan ananı valideynlərim hər il ziyarət edib kefini-əhvalını soruşardı. Hər gedişimizdə də Naxçıvanın məşhur Əlixan məhəlləsində yerləşən Leylan ananın evinin qonaq otağında divara asılmış bir foto diqqətimi çəkərdi. Formada olan gülərüz, mehriban simalı kişinin kim olduğunu 90-cı illərin sərt rüzgarı üstümüzdən əsəndə öyrəndim.***

Qəfildən başımızın üstünü alan qara buludlar uşaqdan tutmuş böyüyə qədər hər kəsi sarsıtmışdı. Sədərəkdə gedən döyüşlər, aldığımız şəhid xəbərləri, bir tərəfdən də Zəngəzurdan, Dərələyəzdən Naxçıvana pənah gətirənlər. Sinfimizə yeni uşaqlar qəbul edilmişdi. İndiki kimi yadımdadır, biz onlara qəribə baxırdıq, onlar isə ürkək baxışlarla. Nə baş verdiyini uşaq ağlımızla anlamırdıq. Çünki tarix dərslərində bizə sovet ideologiyasını təbliğ etmişdilər, ölkələrin dostluğundan, qardaşlığından dəm vurmuşdular, gerçək tarixdən bizi xeyli uzaq tutmuşdular. Odur ki, anlamaqda çətinlik çəkirdik. Əslində, xain ermənilərin illərlə apardığı məkrli siyasətin, biz uşaqlar üçünsə anı sayılan bu qarmaqarışıq hadisələrin tam mərkəzində idik. Naxçıvan blokadaya salınmışdı. Vəziyyət getdikcə çətinləşirdi. Ailələr övladlarını qorumaq, onları burulğandan kənar saxlamaq naminə çırpınırdılar. Elektrik, qaz kəsintisi Naxçıvanın sərt qışını daha da sərtləşdirmişdi. Hələ uzanan çörək növbələri. Həsrətlə çörəyin iyisini içimizə çəkdiyimiz o günlər... Və o günlərin birində çörək növbəsində adamların arasında qalaraq boğulan mən. Xatırladıqca insanın içi sızlayır, uşaqlığımızın itdiyi o qarmaşıq günləri yada saldıqca kədər hissi bürüyür. O kədərli anlara qayıtmaq belə istəmirsən, üzülürsən, sıxılırsan...

Bax belə çətin günlər yaşadıq biz. Ümidlərimizin öləzidiyi bir vaxtda, isti bir yay günündə 1990-cı il iyulun 22-də dahi rəhbər Heydər Əliyev Naxçıvana gəldi. Bütün evlərdə Onun gəlişi haqqında söhbət gedirdi. Naxçıvan öz oğluna qucaq açmışdı, hamı imdad gözləyirdi. Azərbaycana rəhbərliyinin birinci dövründə xalqına, elinə, obasına sadiqliyi, fədakarlığı ilə insanların qəlbinə yol tapan Heydər Əliyevin gəlişi narahat ürəklərə su səpmişdi. İyulun 28-də vəziyyətlə yerindəcə tanış olmaq üçün Sədərəyə gələn Ulu Öndər Heydər Əliyev əhalini daha dözümlü, daha əzmkar olmağa, düşmən qarşısında daha mətanətlə dayanmağa səsləyir.

Artıq əndişə, gərginlik geridə qalmışdı. Hər kəs gələcəyə xoş ümidlər bəsləyirdi. Elə bu ümidlərlə də naxçıvanlılar dahi rəhbərin ətrafında sıx birləşdi. 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilməsi xalq tərəfindən böyük sevinclə qarşılandı.

Ömrünü xalqının firavanlığına həsr edən Ulu Öndər paytaxtdan ayrı düşən, blokada məngənəsində çırpınan naxçıvanlılara dayaq oldu. Bütün qüvvəsini sərf edərək ona bəslənən ümidlərə çıraq oldu. Çıraq işığında verilən qərarlar isə tək Naxçıvanın deyil, ölkənin gələcəyinə hesablanmış uzaqgörən addımlar idi.

1990-cı il noyabrın 17-də deputatların istəyi və böyük təkidi nəticəsində Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyasında mühüm qərarlar qəbul olundu. Azərbaycanın müstəqilliyi və suverenliyinə hesablanmış tarixi qərarları qəbul etmək həmin dövr üçün böyük cəsarət və fədakarlıq tələb edirdi. Belə ki, təcrübəli dövlət xadiminin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvanda dalğalandırıldı. Bununla da milli dövlət quruculuğu yolunda qətiyyətli addımlar atıldı.

Hələ ölkəyə birinci rəhbərliyi dövründə Naxçıvana bir neçə dəfə səfər edən, Naxçıvanın, naxçıvanlıların qayğıları ilə maraqlanan, kənd təsərrüfatının, sənayenin, təhsilin, mədəniyyətin dirçəlişinə rəvac verən fəaliyyəti ilə hər kəsin sevimlisinə çevrilmiş Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçildi. Bu seçim Naxçıvanın tarixi taleyində mühüm rol oynamaqla ölkənin işıqlı sabahına doğru yol açdı.

O dövrdə bir neçə istiqamətdən düşmən hücumuna məruz qalan Naxçıvanın ən təhlükəli sərhəd zonası Sədərək idi. Ağır döyüşlər gedirdi. Milli ordunun, güclü silahsursatın olmadığı bir dönəmdə təpədən-dırnağa silahlanmış düşmənin qabağında mərd-mərdanə dayanan naxçıvanlılar düşmən qabağından çəkilmir, təcrübəli sədərəklilər öz yurd-yuvalarını tərk etmirdilər. Daim sədərəklilərin yanında olan dahi rəhbər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən cəmi iki ay sonra imzaladığı "Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun inzibati-ərazi bölgüsündə dəyişiklik edilməsi haqqında" 16 dekabr 1991-ci il tarixli Qərarı da birbaşa o böyük şəxsiyyətin Sədərək rayonuna qayğı və diqqətinin təzahürü idi.

Buna qədərki qısa müddət ərzində Naxçıvanın müdafiəsinin gücləndirilməsi məqsədilə mühüm addımlar atılmışdı. Ulu Öndər Heydər Əliyev Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Qərar qəbul etdi. Bununla da muxtar respublikada ilk milli ordu birləşmələri yaradıldı, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırıldı, etibarlı müdafiəsi təmin olunmağa başlandı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrdə Ümummilli Liderin Sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən demişdir: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. Ovaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək Ulu Öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir".***

Görkəmli dövlət xadiminin Ali Məclisin Sədri vəzifəsinə seçiləndən sonra qısa müddət ərzində Naxçıvanın xilası naminə gördüyü böyük işlər tarixi əhəmiyyətə malik olmaqla həm də ölkənin sabahı üçün düşünülmüşdü. 1991-ci il dekabrın 16-da "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, 1992-ci il mayın 28-i Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması, Naxçıvanın və ümumən, ölkənin mövcud durumuna adekvat olaraq atılmış məqsədyönlü addımlar idi.

Paytaxtda isə vəziyyət getdikcə gərginləşirdi. Torpaqların işğala məruz qalması, ölkənin xaosa doğru sürüklənməsi xalqı ayağa qaldırmışdı. Belə bir durumda xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan görkəmli dövlət xadimi Heydər Əliyevə üz tutdu. Xalqın çağırışlarına cavab verərək 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıdan dahi rəhbər respublikanı xaosdan, anarxiyadan, məhv olmaq təhlükəsindən xilas etdi. Xalqın düzgün seçimi ölkəni qurtuluş yoluna çıxarmaqla Azərbaycan dövlətinin tarixinə də həmin günü – "Milli Qurtuluş Günü" kimi yazdı.

Bu gün biz Naxçıvandan başlanan qurtuluşun, milli dövlət quruculuğunun, dirçəlişin bəhrələrini yaşayırıq. Gerçəkləşən Böyük Qayıdış proqramı ilə işğaldan azad olunan torpaqlarımız – Qarabağımız, Şərqi Zəngəzurumuz qarış-qarış abadlaşır, insanlar öz elinə, yurduna-yuvasına dönür. 1988-ci ildən başlanan qanlı, faciəli köç indi bayram əhvali-ruhiyyəli köçlə əvəz olunub. Daşı daş üstündə qoymayan mənfur düşmənin etdikləri dağıntıların yerində uca binalar, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilir, yaşıllıqlar salınır.

Dahi şəxsiyyətin ideyalarını həyata keçirən ölkə başçısı İlham Əliyev böyük Zəfərdən sonra 2021-ci il mayın 10-da Ümummilli Liderin doğum günündə onun Vətəninə – Naxçıvana gəlib. Qazanılan zəfərin təməlini Ulu Öndərin ovaxtkı fəaliyyəti ilə əlaqələndirən ölkə başçısı Azərbaycan televiziyasına müsahibəsi zamanı demişdir: ***"Naxçıvanı Heydər Əliyev qorumuşdur, necə ki ondan sonra Azərbaycanı böyük bəlalardan qoruya bildi. 1993-cü ildə ölkəmiz, demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax o vaxt qoyulmuşdur. Bu gün burada olmağımın xüsusi rəmzi mənası var. Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallığdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir".***

Bəli, artıq paytaxta qovuşmağın bir addımlığındayıq. Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan özünün yeni bir inkişaf mərhələsinə qədəm qoyacaqdır.

Hələ Sovet İttifaqı dönəmində Leylan ananın evindəki kimi yüzlərlə evin ən əziz küncündə divara vurulan foto 1990-cı illərdə əllərdə meydanlarda idi. Xalq öz xilaskarını səsləyirdi – sevgi ilə, ümid ilə, həsrət ilə...

Həmin fotodakı məğrur duruşlu adam o idi: Azərbaycanı məhv olmaqdan qurtaran, dünya ölkələri sırasına çıxaran, milli kimliyimizi, dəyərlərimizi, tariximizi özümüzə qaytaran dahi şəxsiyyət Heydər Əliyev!

Xalqımız 1920-ci ildə endirilən üçrəngli bayrağını illərlə qəlbində, ruhunda daşıdığı kimi, o böyük şəxsiyyəti də milli dəyər kimi daşımış, heç zaman ona olan sevgisini, inamını itirməmişdir. Zaman yetişəndə ətrafında sıx birləşmiş, sayəsində bayrağına, milli dəyərlərinə, azadlığına, suverenliyinə qovuşmuşdur. Naxçıvan isə bu dəyərləri birləşdirən ocaq olaraq Azərbaycan tarixinə öz möhürünü vurmuşdur.

**Ruhiyyə RƏSULOVA**

# Azərbaycan-Çin:

## səmimi, etibarlı dostlar, hərtərəfli strateji tərəfdaşlar

(əvvəli 1-ci səhifədə)

***ŞƏT sammiti: Azərbaycanın çoxtərəfli dialoqa, səmərəli əməkdaşlığa töhfəsinin ifadəsi***



Azərbaycanla Çin əlaqələrinin möhkəmliyi, sarsılmazlığı həm də beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və digər təsisatlar çərçivəsində özünü ən bariz şəkildə göstərir. Bu xüsusda ikitərəfli əməkdaşlıqların dərinləşdirilməsi və beynəlxalq münasibətlərin formalaşmasına töhfə olaraq çoxtərəfli dialoqun möhkəmləndirilməsi baxımından ŞƏT-in rolu xüsusi vurğulanmalıdır. 2001-ci ildə 6 ölkə – Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunan təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir. Avrasiya ərazisinin 60 faizini, dünya əhalisinin 40 faizini, dünya üzrə ümumi



məhsulun isə 25 faizini özündə birləşdirən ŞƏT regionda siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın əsas platformalarından biri sayılır. Hazırda 10 ölkə-Rusiya, Belarus, Hindistan, İran, Qazaxıstan, Qırğızıstan, Çin, Pakistan, Tacikistan və Özbəkistan təşkilatın tamhüquqlu iştirakçılarıdır. Azərbaycan isə ŞƏT-də dialoq tərəfdaşı statusuna sahib 14 ölkədən biridir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Respublikamızın bu beynəlxalq təşkilatla əməkdaşlığı terrorizm, ekstremizm və separatçılıqla mübarizə, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi kimi müxtəlif sahələri əhatə edir. Prezident İlham Əliyev hər zaman Şanxay Əməkdaşlıq Təşkilatının beynəlxalq rolunun güclənəcəyinə dair yüksək fikirlərlə çıxış edir, Azərbaycan-Çin qarşılıqlı fəaliyyətin respublikamızın ŞƏT çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcəyini vurğulayır. Ötən il iki ölkə arasında strateji tərəfdaşlığın rəsmiləşdirilməsinin məhz ŞƏT-in Astana Sammitinə təsadüf etməsini bu baxımdan dövlət başçımızın praqmatik ideya və məharətli diplomatiyasının təntənəsi, təşkilat tərəfindən ölkəmizə göstərilən etimadın nəticəsi kimi dəyərləndirmək olar.

Sentyabrın 1-də Çinin Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) illik sammitində 20-dən çox ölkənin lideri və 10 beynəlxalq təşkilat iştirak edib. Azərbaycan lideri "ŞƏT plyus" formatında görüşdə çıxışı zamanı respublikamızın mühüm nəqliyyat, tranzit imkanlarının bölgəyə qazandırdığı faydalardan, Çinlə etibarlı ticarət tərəfdaşlığından söhbət açıb.

Bəli, Prezident İlham Əliyevin fikirlərindən yola çıxaraq əminliklə deyə bilərik ki, nəqliyyat və logistika baxımından Azərbaycan-Çin ticarət əlaqələrində mühüm yeri məhz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, digər bir adla desək Orta Dəhliz tutur. Orta Dəhlizin gerçəkləşməsi prosesinə nəzər saldıqda Si Cinpinin 2013-cü ildə irəli sürdüyü və tarixi İpək Yolunun bərpasına xidmət edən "Bir kəmər, bir yol" təşəbbüsünü xüsusi vurğulamaq lazımdır. Azərbaycan bu nəhəng layihəyə ilk dəstək verən ölkələrdən olub. Belə ki, 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə səfəri zamanı ikitərəfli əməkdaşlıqda mühüm önəm daşıyan "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu"nun imzalanması bu istiqamətdə dəstəyin göstəricisinə çevrilib. 2017-ci ilin oktyabrında isə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə həmin layihəni əyani şəkildə təsdiqləmiş olan ölkəmizin bu mütərəqqi addımı Çin hökuməti tərəfindən yüksək dəyərləndirilib. Məhz qısa zaman kəsiyində cərəyan edən bu böyük ictimai-siyasi hadisələri, əldə olunan iqtisadi nailiyyətləri analiz edəndə bir daha aydın olur ki, bugünkü Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının başlanğıc nöqtəsi 10 il öncəyə dayanır.

Orta Dəhlizə dair genişlənən Azərbaycan-Çin əməkdaşlığı fonunda 2025-ci ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının 3 dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır. Bu marşrut vasitəsilə Çindən Avropaya yüklər artıq 10 min kilometr deyil, 7 min kilometr məsafə ilə, cəmi 12 günə daşına bilir. Və bütün bunlar belə deməyə əsas verir ki, Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Bu yola alternativ yoxdur. Orta Dəhlizin timsalında ötən il Azərbaycan-Çin ticarət tərəfdaşlığı da xeyli gücləndirilib, daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. Ümumilikdə, ötən il Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb. 2024-cü ildə Orta Dəhliz ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. 2025-ci ildə onun 5,2 milyon tona qədər artacağı gözlənilir ki, bunun da 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Bu həcmin 2,5 milyon tonu quru yük (96 min TEU ekvivalenti), 1,7 milyon tonu isə neft olacaq. Marşrutun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər. Prezident İlham Əliyev sentyabrın 1-də "ŞƏT plyus" formatında görüşdə çıxışı zamanı Azərbaycanın bu layihə üzrə hədəflərinin böyük olduğunu vurğulayıb, dəhlizin yükdaşıma qabiliyyətinin artdığını və paralel olaraq keçid müddətinin azaldığını diqqətə çatdırıb: ***"Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Biz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradırıq. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb. Azərbaycan Ələt Beynəlxalq Dəniz Limanının buraxılış qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir. Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb".***

Prezident İlham Əliyevin Çinə səfəri çərçivəsində nüfuzlu Çin şirkətləri, eləcə də ayrı-ayrı dövlət başçıları ilə təkbətək görüşləri, xüsusilə də illik ŞƏT sammitindəki çıxışı respublikamızın beynəlxalq arenada mühüm aktorlardan biri olduğu faktını bir daha ortaya qoydu. Göründüyü kimi, Azərbaycanın son 10 ildə əsrə bərabər reallıqları yaratması, təşəbbüsləri gerçəkliyə çevirməklə Avropanı Asiya ilə birləşdirən mühüm nəqliyyat-logistika imkanlarına malik olması, tranzit ölkə statusu qazanması ABŞ, Çin kimi nəhəng siyasi, iqtisadi güclər tərəfindən təqdir edilməsini şərtləndirir. Əminliklə demək olar ki, aparılan uğurlu diplomatiyanın tarixi uğuru sayılan Vaşinqton görüşünün nəticələrinə əsasən yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması respublikamızın qlobal iqtisadiyyatda, ticarətdə nüfuzunu daha da gücləndirəcək, regionda davamlı sülhün, dünyada yeni nizamın düzgün formalaşmasına, çoxtərəfli əməkdaşlığın bərqərar olunmasına mühüm töhfələr verəcək. ***"Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə bu yaxınlarda əldə olunmuş razılaşmalar beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək. Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək"*** sitatın sonu!




**✍ Nail ƏSGƏROV**

# Azərbaycanın böyük və qüdrətli LİDERİ

## Cəsarət, geri çəkilməmək, səbir, dözüm, təmkin və Qələbə



Cəsarət – bu həm liderlik, həm cəngavərlik, həm də gücü, qorxusuzluğu, özündə etiva edən bir kəlmədir. Təkcə özü üçün hansısa çətinliyin öhdəsindən gəlib cəsarətli addım atmaq bir insanın qorxusuzluğunu göstərirsə, bir xalq üçün önə çıxmaq bütöv bir dövlətin yükünü çiyinlərinə ala bilmək cəsarətini göstərmək isə bütün bunların fövqündə dayanan bir güc tələb edir. Bu gücü isə ancaq Vətənini ürəkdən sevən insanlar qazana bilir. Vətənini qəlbən sevən liderlər isə xalqının sevgisinə layiq olur. Bu əvəzsiz hörməti qazanmaq hər kəsə qismət olmur. Ulu Öndərin davamçısı Onun işıqlı yolunda xalqı ilə birlikdə, əl-ələ yeriyən Prezident İlham Əliyev bu xoşbəxtliyi qazanan yaşayan və yaşadan liderlərdəndir.

Cənab İlham Əliyev o qədər cəsarətlidir ki, cəmi 42 yaşında Qarabağ kimi böyük bir problemi olan Azərbaycanın ağır yükünü çiyninə götürməkdən çəkinmədi. Baxmayaraq ki, həmin dövrlərdə biz təkcə regionda yox, dünyada təklənmişdik. Erməni işğalı, bir milyon qaçqın, iqtisadiyyatı tamamilə çökmüş bir ölkə, yenicə qazanılmış müstəqilliyin gətirdiyi çətinliklərlə başa çıxmağa çalışan xalqın lideri Ulu Öndər Heydər Əliyev çətinlikləri ortadan tam qaldırmağa nail olmağa çalışdığı bir vaxta zaman və tale bizim əleyhimizə işləmiş, o çox sevdiyi xalqından cismən ayrılmışdı. O başa çatdıra bilmədiyi işləri xalqının dəstəyi ilə layiqli davamçısının yerinə yetirəcəyinə əmin olub, canı qədər sevdiyi Vətənini ona əmanət etmişdir. Azərbaycan Prezidenti seçilən gün ***“Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm”*** deməklə təkcə Azərbaycanda yaşayan 10 milyonluq xalqın yox, dünyada yaşayan 50 milyon azərbaycanlının yükünü də öz çiyninə almaqdan çəkinməyən bu cəsarətli siyasətçi sonrakı illərdə göstərdiyi səbir, təmkinlə saldığı yolda öz xalqı ilə birgə addımladı. Ən çətin vaxtda belə heç kim Onun geri çəkildiyini görmədi.

### *Lazım olan vaxtlarda lazım olan addımları atırıq*

İllər keçdikcə qədim türk hökmdarlarına xas olan xüsusiyyətləri bir-bir göz önünə çıxdı Ali Baş Komandan İlham Əliyevin. O hər addımında güclü bir xalqın lideri, siyasət dahisinin davamçısı olduğunu sübut etdi. Dünyasəviyyəli tədbirlərdə düşmən dövlətin Baş nazirinin cavabını verməklə qalmayıb, haqq səsimizi dünyaya çatdırdı. Doğru zamanı gözləyib öz doğrularından dönməyərək, nə zaman nə edə biləcəyini heç kimin düşünə bilmədiyi bir siyasət dahisi, əsgərinə örnək bir komandan, çətin anlarda düzgün qərarlar qəbul edən bir siyasi şahmat ustası olan ölkə başçısı ***“Lazım olan vaxtlarda lazım olan addımları atırıq”***, – deyərək və yerinə yetirərək xalqın sevgisini qazandı.

O, planları haqqında danışmağı sevməyən, sadəcə, iş görən bir rəhbərdir. Səbirlə, əzmlə çalışmağı sevən ölkə başçısının Qarabağa gedən yolu necə saldığını bu xalq da, dünya da Vətən savaşında gördü. Müharibənin başlandığı ilk günlərdə Rusiya kimi böyük bir dövlətin başçısının “Qarabağ Azərbaycan torpağıdır” deməsi ölkə başçısının siyasət meydanındakı ən böyük uğurlarından biri idi. Erməni Baş naziri Paşinyanın Münhendə Prezident İlham Əliyevlə debatda “səhvən” “Qarabağ Azərbaycan torpağıdır” deməsi və səhvini düzəltməyə çalışarkən düşdüyü vəziyyət isə nə bizim, nə də torpağımızı illərlə tapdaqda saxlayan ermənilərin yaddaşından silinməyəcək.

### *Qələbə + qələbə*

27 sentyabr 2020-ci ilə kimi heç kim onun çəkdiyi yolun hansı postdan başlayacağını ağlına gətirə bilmirdi. Heç kimin ağlına gəlmirdi ki, 30 ildir, “keçilməz” olan Ohanyan xətti Ali Baş Komandanın bir əmri ilə darmadağın ediləcək, düşmən pərən-pərən salınacaq.

44 gün – dünya tarixində görülməyən hərbi əməliyyatlar, illərdir, işğalda olan torpaqların azad olunması, dünya hərb tarixinə düşən Şuşa əməliyyatı, Azərbaycan əsgərinin cəsarəti, döyüş meydanında qələbələr. Diz çökən düşmən, Naxçıvana açılan qapı. Həmin günlərdə xaos yaratmağa çalışanların suallarına verilən sərrast cavablar. 4 dildə 4 saat davam edən mətbuat konfransı. Və böyük qayıdış, doğma ocağımıza enən təyyarədən gələn “Qarabağa xoş gəlmisiniz” sədası. Xalqın tükənməz sevgisi ilə birləşən siyasi zəka, təmkin, səbir və cəsarətlə qazanılan qələbə. Həm hərb meydanında, həm də siyasi masada qalib olub adını Azərbaycan tarixinə torpaq qaytaran ilk lider olaraq həkk etdirən Müzəffər Komandan.

Və bu gün dünyanın super gücünün rəhbəri Onun mövqeyi ilə hesablaşır. İlham Əliyev aylar əvvəl haqsız yerə tənqid olunduğu Ağ evdə artıq regionun LİDERİ kimi qarşılanır. Bu gün təkcə Qafqazda yox, dünyada söz sahibinə çevrilən Azərbaycanla hesablaşmaq məcburiyyətində qalan ölkə başçıları beynəlxalq tədbirlərdə İlham Əliyevlə bir kəlmə kəsməyə, onunla görüşməyə can atır. Bax budur Heydər Əliyev siyasətinin davamı, budur İlham Əliyev fərqi: təmkin, cəsarət, geri çəkilməmək, səbir, dözüm, Vətənə şərəflə xidmət və QƏLƏBƏ!

## “Dəmir yumruq” Minsk qrupuna “toy edib” yola saldı




ATƏT-in Minsk qrupu… Biz 30 ildir, bu qrupun adını o qədər tez-tez eşidirdik ki, artıq əzbərləmişdik. Onlar səhnəyə “sülh” adı ilə çıxmışdı. Amma çox təəssüf ki, keçmiş “Dağlıq Qarabağ münaqişəsi”nin həlli ilə məşğul olmaq kimi vəzifələrini “unudub”, vədinə xilaf çıxıb, 28 il bölgəyə turist kimi səfərlər edir və yalnız Ermənistanın maraqlarına uyğun açıqlamalar verirdilər. Münaqişəni həll etmək əvəzinə dondurur, öz isti kabinetlərində əyləşib evindən didərgin düşən bir milyon insanın soyuq qış gecələrində dəmir vaqonlarda necə yaşadığına məhəl qoymadan gündə bir bəyanatla çıxış edirdilər. Düşmən tapdağında olan torpaqlara mənasız səfərlər edir, düşmənin xarabaya çevirdiyi yurd-yuvamızdan bizə yalan vədlər verir, vaxt keçirirdilər.

Səfərlərin birində oradan – Ağdam məscidinin divarlarından qoparılmış bir parça daş gətirib Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevə təqdim edəndə, dahi rəhbər həmin daşı müqəddəs bir əşya kimi qəbul edəndə Ulu Öndərin üzündəki “Vaxt gələcək bu daş öz yerinə oturacaq” ifadəsi, yəqin ki, həmin şəxslərin 44 günlük savaşın elə ilk günündə yuxusuna girdi. Və onlar yuxudan ayılanda Azərbaycan əsgəri artıq 30 illik bir “keçilməz” səddi aşıb Şuşa dağlarına çatmışdı. Şuşa dağlarından aşıb, Ağdama yetib bax elə həmin daşı Cümə məscidinə, öz yerinə qoyanda ATƏT-in Minsk qrupunun bütün üzvlərinin yuxusu ərşə çəkildi. Və həmin gün Azərbaycanın başı üstündə doğulan günəş təkcə 30 ildir, dondurulan münaqişənin buzunu əritməklə qalmayıb, illərdir, həsrətdən buz tutan ürəklərdəki qarı da əritdi.

Vətən savaşı bir xalqın torpaq sevgisinin və səbrinin nə qədər böyük olduğunu dünyaya göstərdi. Vətən savaşında qazanılan Qələbə ilə 30 illik işğala son qoyan Ali Baş Komandan İlham Əliyevin başçılıq etdiyi müzəffər Ordumuz həm BMT Təhlükəsizlik Şurasının qətnamələrini, həm də Minsk qrupunun 30 ildir, öhdəsindən gələ bilmədiyi vəzifələri cəmi 44 gündə yerinə yetirdi. Dövlət başçımızın ***“Dağlıq Qarabağ adlı məhfum artıq yoxdur”*** sözləri beynəlxalq səviyyədə təsdiqləndi. 44 günlük müharibədə və sonrakı dövrlərdə hadisələrə müdaxilə etməyən, əvvəllər olduğu kimi, səssizlikləri ilə işğalçını dəstəkləyən Minsk qrupu ölü qurum olduğunu bir daha təsdiqlədi.

Çıxışlarından birində: ***“İndi Minsk qrupu faktiki olaraq səhnədən gedib. Biz – bu prosesin iştirakçısı olan ölkə deyirik ki, Minsk qrupuna ehtiyac yoxdur, 28 il heç bir nəticə hasil etməyən qrupa ehtiyac yoxdur. Bunu biz deyirik. Minsk qrupu həmsədrləri arasında yumşaq desək, soyuq müharibə gedir. Faktiki olaraq özləri etiraf edirlər ki, Minsk qrupu qeyri-funksionaldır. Rusiya tərəfi deyir ki, Minsk qrupu artıq fəaliyyətsizdir və digər həmsədrlər bu instituta son qoyub. Ermənistan tərəfi yenə də, hər dəqiqəbaşı Minsk qrupu belə gəldi, Minsk qrupu belə getdi deyir. Bu nə deməkdir? Sadəcə olaraq, biz yenə də bunun arxasında ölkəmizə qarşı ərazi iddiası görürük. Bir tərəfdən, Ermənistan bizim beş prinsipimizi qəbul edir, bunu etiraf edir – onların arasında ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, bir-birinə qarşı ərazi iddialarından əl çəkilməsi və digər müddəalar var – digər tərəfdən, Minsk qrupu elə bil, nə iləsə məşğul olmalıdır. Onda sual olunur: Nə ilə məşğul olmalıdır? Qarabağ münaqişəsi həll olunub, Qarabağ mövzusu bağlanıb. Qarabağ Azərbaycandır! Bunu mən demişəm və haqlı olaraq demişəm, indi bunu hamı deyir. O cümlədən Ermənistan deyir – öz xoşu ilə yox, məcburən. Bu məsələ ilə bağlı müzakirə apardığımız bütün ölkələr, təşkilatlar deyir”*** – bu fikirləri ilə bu qurumun artıq ləğv olunmaq vaxtının gəlib çatdığını dilə gətirən ölkə başçısı öz qəti mövqeyini ortaya qoydu.

Müzəffər Sərkərdənin bu mövzudakı çıxışlarını dinləyəndə Vətən savaşının 42-ci günündə Azərbaycan əsgərinin Şuşa dağlarında düşmənə toy tutduğunu və Ulu Öndər Heydər Əliyevin ATƏT-in missiyasının rəhbərliyi ilə görüşlərinin birində açıq kinayə və hiddətlə bildirdiyi ***“Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin 13 yaşı var, ATƏT-in Minsk qrupunun 9 yaşı var. Amma görün neçə illər keçib məsələ həll olunmayıb. Bir az da ləngisək, ATƏT-in Minsk qrupu böyük bir oğlan olacaq. Onu gərək evləndirək. Yaxud ola bilər qız olsun, onu ərə verək. Bu daha tez ola bilər”*** sözlərini xatırladım. Və öz-özümə dedim ki, bu xalq daim öz ağsaqqalının, böyüyünün nəsihətlərini dinləyib və yerinə yetirib.

Və budur, biz də bu gün Minsk qrupuna “toy edib” yola saldıq. Özü də ki, “Qarabağ şikəstəsi”nin sədaları altında birbaşa cəhənnəmə…

**Ramiyə ƏKBƏROVA**

# Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd olunub





Avqustun 29-da Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun iqamətgahında Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, dövlət və hökumət rəsmiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə qardaş xalqlarımızın şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya qonaqları salamlayıb, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər bayramı münasibətilə ölkənin xaricdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxuyub.

Asip Kaya Azərbaycanın ölkəsinə qurtuluş savaşında çox böyük dəstək göstərdiyini bildirərək xalqının bu qardaş dəstəyini daim minnətdarlıqla xatırlayacağını qeyd edib. Baş konsul vurğulayıb ki, türk tarixinin ən böyük zəfərlərindən biri də Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı parlaq qələbəsidir. Qarabağ zəfərinin ən mühüm nəticələrindən biri Zəngəzur dəhlizinin reallaşması olacaqdır. 8 avqust Vaşinqton razılaşması bu istiqamətdə olduqca önəmli addımdır. Zəngəzur dəhlizinin mühüm bir hissəsi olan Qars-İğdır-Naxçıvan dəmir yolu xəttinin təməli qoyulub. Türkiyə və Azərbaycanın ortaq təşəbbüsü ilə əsası 2009-cu ildə Naxçıvanda keçirilən zirvə toplantısında qoyulmuş Türk Dövlətləri Təşkilatı hər keçən gün daha da güclənir. Zəngəzur dəhlizinin açılması ilə türkün qapısı Naxçıvan üzərindən Türk dünyası yenidən bir-birinə qovuşacaq. Asip Kaya Naxçıvanın “Türk dünyası əsri”nin inşasında önəmli rol oynayacağına inamını ifadə edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qardaş Türkiyə xalqını Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə təbrik edərək bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri bu gün bütün dünyada nümunə göstərilən qardaşlıq və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Prezident cənab İlham Əliyev və Prezident cənab Rəcəb



Tayyib Ərdoğanın müdrik və uzaqgörən siyasəti nəticəsində əlaqələrimiz daim inkişaf edir, hər sahədə yeni məzmun qazanır. Xüsusilə son dövrlərdə atılan addımlar tarixi hadisələrdir. Zəngəzur dəhlizi açıldıqdan sonra Azərbaycan və Türkiyə arasındakı əlaqələr yeni strateji müstəviyə yüksələcək, Türk dünyası coğrafi baxımdan birləşəcək, regional iqtisadi əməkdaşlıq daha da genişlənəcək. Zəngəzur dəhlizi yalnız iki dövlətin deyil, bütün Türk dünyasının gələcəyinə xidmət edən tarixi bir layihədir. Bu yaxınlarda istifadəyə verilmiş İğdır-Naxçıvan qaz kəməri ölkələrimiz arasındakı enerji əməkdaşlığının mühüm göstəricisidir. Eyni zamanda Qars-İğdır-Naxçıvan dəmir yolunun təməlinin qoyulması da tariximizə qızıl hərflərlə yazılacaq hadisədir. Bu dəmir yolu təkcə Azərbaycan və Türkiyə arasında deyil, bütövlükdə, Türk dünyasını birləşdirən, regionda iqtisadi əlaqələri və logistik imkanları genişləndirən mühüm layihədir.

Xalqlarımızın hər zaman bir-birinin yanında olduğunu diqqətə çatdıran Fuad Nəcəfli bildirib ki, Azərbaycan xalqı 2023-cü ilin fevralında Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı da qardaş Türkiyənin yanında oldu. Bu qardaşlığın davamı olaraq Kahramanmaraşda “Azərbaycan” məhəlləsinin istifadəyə verilməsi yalnız yaşayış kompleksi deyil, həm də xalqlarımızın sarsılmaz birliyinin əbədi rəmzinə çevrildi.

Səlahiyyətli nümayəndə əminliklə deyib ki, Azərbaycan-Türkiyə münasibətləri gələcəyə hesablanmış, sarsılmaz təməllər üzərində qurulmuş münasibətlərdir. Bu münasibətlər xalqlarımızın iradəsindən güc alır, dövlət başçılarımızın müdrik siyasəti ilə möhkəmlənir. Azərbaycan-Türkiyə qardaşlığı təkcə iki dövlətin dostluğu deyil, həm də bütün Türk dünyasının gələcəyidir. Bu qardaşlıq daim yaşayacaq, yeni nəsillərə ötürüləcək və hər iki ölkənin uğurları bir-birinə dayaq olacaq.

Tədbir rəsmi ziyafətlə davam edib.

# Səlahiyyətli nümayəndə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb



*Avqustun 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Qonağı qədim diyar Naxçıvanda salamlamaqdan məmnunluğunu ifadə edən səlahiyyətli nümayəndə bildirib ki, Ermənistanın uzun illər davam edən işğalçılıq siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas hissəsindən ayrı düşüb və quru nəqliyyat əlaqələri kəsilib. Ötən illər ərzində işğal altında qalmış ərazilərdəki mövcud nəqliyyat infrastrukturu, o cümlədən dəmir yolu sistemi dağıdılıb. Bu baxımdan Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində əldə edilmiş nəticələr bölgə üçün mühüm gələcək vəd edir.

Fuad Nəcəfli zəngin təbii resurslara malik olan Naxçıvanda alternativ enerji, logistika və turizm sektorlarında mühüm layihələrin icra olunduğunu diqqətə çatdıraraq müxtəlif sahələrdə böyük investisiya perspektivlərinin olduğunu vurğulayıb.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono Vaşinqtonda Ermənistanla münasibətlərin normallaşdırılması, sülh gündəliyi ilə bağlı əldə edilmiş mühüm nəticələri yüksək qiymətləndirib. O, Naxçıvanın Avropa və Asiyanı birləşdirəcək mühüm strateji mövqeyinə toxunaraq bu perspektivdə geniş logistik-nəqliyyat layihələrinin icrasının region üçün strateji əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə Avropa İttifaqının regional bağlantılara, habelə nəqliyyat dəhlizinin həyata keçirilməsi prosesinə dəstək verməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# Naxçıvanda qəbul imtahanlarında yüksək nəticə göstərmiş məzunlarla görüş keçirilib



*Sentyabrın 3-də Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri üzrə ali təhsil müəssisələrinə qəbul imtahanında yüksək bal toplamış tələbələrlə görüş keçirilib.*

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bilik yarışında böyük nailiyyətlər qazanan gəncləri səmimi-qəlbdən salamlayıb, ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərən, eləcə də tələbə adını qazanan bütün məzunları, onların valideynlərini təbrik edib, müəllimlərə təşəkkürünü bildirib.

Səlahiyyətli nümayəndə qeyd edib ki, dövlət siyasətinin tərkib hissəsi olaraq “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da təhsilə xüsusi yer ayrılıb. Bu qayğı isə öz bəhrəsini verir. Hər il ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr qazanılır. Bütün bunlar 2024-2025-ci tədris ilində muxtar respublikada 4752 şagirdin ümumi orta, 3992 şagirdin tam orta təhsil səviyyəsini uğurla başa vurmasına imkan yaradıb. Təhsili xüsusi nailiyyətlərlə başa vuran 4 şagird qızıl nişana, 281 şagird isə fərqlənmə attestatına layiq görülüb. Naxçıvanda 2024-2025-ci tədris ili üzrə fərqlənmə attestatına layiq görülən məzunların sayı son 30 ilin nəticələrinə əsasən ən yüksək səviyyədə olub. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində 396 məzun 500-700, o cümlədən 291 nəfər 500-600, 77 məzun 600-650, 28 şagird isə 650-700 intervalında bal toplayıb. Ötən illə müqayisədə yüksək nəticə göstərən məzunların sayı 16 faiz artıb. Bu da muxtar respublikada son 30 ildə əldə olunan ən yüksək göstəricidir.

Təhsilə qoyulan sərmayəni



ölkənin gələcəyinə qoyulan sərmayə kimi dəyərləndirən Fuad Nəcəfli vurğulayıb ki, biliklərə əsaslanan iqtisadiyyat, innovasiyayönümlü inkişaf yaşadığımız dövrün reallıqlarıdır. Bu strateji baxış dövlət siyasətimizin əsasını təşkil edir. Ulu Öndərin müdrik uzaqgörənliyi, həm də ölkə başçısı cənab İlham Əliyevin bu xətti ardıcıl şəkildə davam etdirməsi göstərir ki, təhsil Azərbaycanın gələcəyini müəyyənləşdirən ən mühüm amildir. Beləliklə, tələbəlik illəri gənclərdən daha çox məsuliyyət, daha çox zəhmət, daha geniş dünyagörüşü tələb edir. Təhsili uğurla başa vurmaq,

*ardı 6-cı səhifədə*









seçdiyi ixtisası dərindən öyrənmək, kamil mütəxəssis kimi yetişmək tələbələrin qarşısında duran əsas vəzifələrdir. Əldə olunan biliklər yalnız gənclərin gələcəyi üçün deyil, həm də Azərbaycanın gələcəyi üçündür.

"Naxçıvan torpağı tarixboyu Vətənə elmli, mədəniyyətli, vətənpərvər insanlar bəxş edib. Sizin də yolunuz bu ənənələrin davamı olacaq. Biz inanırıq ki, siz gələcəkdə bilik və bacarığınızla ölkəmizin inkişafına, milli dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verəcəksiniz", – deyən səlahiyyətli nümayəndə gənclərə oxuduqları universitetdən, seçdikləri ixtisasdan asılı olmayaraq, Vətənə bağlı olmağı, dəyərlərimizə sadiq qalmağı, bilik və təcrübələrini Azərbaycan üçün sərf etməyi tövsiyə edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov 2025-ci ilin Naxçıvan təhsili üçün ən uğurlu illərdən biri olduğunu vurğulayıb. Nazir bu il ilk məzun buraxılışı olan Naxçıvan Dövlət Universitetinin gimnazisyasını uğurlu nəticə münasibətilə təbrik edərək deyib ki, gimnaziyanı 36 məzun bitirib. Onlardan 16-sı 500-700 intervalında bal toplayıb. Həmçinin vurğulayıb ki, Dövlət İmtahan Mərkəzinin ötən tədris ili ilə bağlı açıqladığı hesabata əsasən buraxılış və qəbul imtahanlarında ölkə üzrə ilk beşlikdə Naxçıvan şəhərinin, Şahbuz rayonunun məktəbliləri yer alır.

Naxçıvan məktəblilərinin ötən il əldə etdiyi yüksək nəticələrdən bəhs edən nazir diqqətə çatdırıb ki, Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin şagirdi Nərmin Əliyeva ABŞ və digər ölkələrin universitetlərinə qəbul üçün keçirilən beynəlxalq SAT imtahanı üzrə 1600 ballıq sistemdən 1580 bal nəticə göstərərək ölkə birinciliyi və dünya üzrə ən yüksək nəticə göstərən 1 faizlik tələbə siyahısına daxil olub. Həmçinin Naxçıvan Qızlar Liseyinin şagirdi Nuray Cabbarlı 22 ölkədən müraciət edən 35 min namizəd arasından seçilərək beynəlxalq FLEX proqramına qəbul olunaraq ABŞ-da təhsil almaq imkanı qazanıb. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdi Elgün Şükürov isə TEC-NEST Təqaüdünə və CİSCO Beynəlxalq sertifikatına layiq görülüb. Həmçinin Naxçıvan



məktəbliləri ilk dəfə olaraq PISA 2025 – Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında iştirak ediblər. Həmçinin Naxçıvan məktəbliləri Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalında I yerin qalibi olub.

Tədbirdə çıxış edən Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin məzunu Oruc Rəhimlinin anası Səfurə Hüseynova övladlarının əldə etdiyi nailiyyətlərin ölkə başçısının təhsilə göstərdiyi diqqət və gənclərimizə yaratdığı imkanların bariz nəticəsi olduğunu deyib, yaradılan şəraitə görə ölkə başçısına bütün valideynlər adından minnətdarlığını bildirib.

Ali məktəblərə keçirilən qəbul imtahanlarında 690 bal toplayaraq muxtar respublika birincisi olan Naxçıvan Qızlar Liseyinin məzunu Sehrin Cəfərova əmin edib ki, ölkəmizin inkişafına töhfə verən savadlı, bacarıqlı, əzmkar və vətənpərvər gənclik nümunəsi olacaqlar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edən məzunlarla xatirə fotosu çəkdirib.

Tədbirdə 500-700 intervalında nəticə əldə etmiş məzunlar mükafatlandırılıb.



## Səlahiyyətli nümayəndə şəhid övladını ali məktəbə qəbul olunması münasibətilə təbrik edib



Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Vətən müharibəsi şəhidi, "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmiş Ruzi İbrahimovun övladı Gülay İbrahimova ilə görüşüb.



Səlahiyyətli nümayəndə Gülay İbrahimovanı tələbə adını qazanması münasibətilə ürəkdən təbrik edib, ona sağlam həyat, təhsilində və gələcək fəaliyyətində uğurlar arzulayıb. Bildirib ki, dövlətimiz Vətən fədailərinin qəhrəmanlıqlarını unutmur, onların bizə əmanəti olan övladlarına daim xüsusi qayğı göstərir.

Gülay İbrahimova səmimi görüşə görə təşəkkür edib. Məlumat verib ki, Bakı Dövlət Universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunub. Ali təhsilini uğurla davam etdirərək qəhrəman atasının uğrunda canından keçdiyi Vətəninə layiqli bir övlad kimi yetişməyi qarşısına məqsəd qoyub.

Səlahiyyətli nümayəndə şəhid övladı ilə səmimi söhbət edib, onun qayğıları ilə maraqlanıb.

Fuad Nəcəfli şəhid övladına hədiyyələr təqdim edib, onunla xatirə fotosu çəkdirib.

## Maqdalena Qrono: *Naxçıvan mühüm logistika mərkəzinə çevriləcək*

"Hazırda Azərbaycan və Ermənistan arasında tammiqyaslı normallaşma üçün yeni imkanların açıldığı çox vacib bir dövrdən keçirik. Mən Avropa İttifaqı adından regional əməkdaşlıq və normallaşma səylərinin bütün aspektlərini dəstəkləmək mandatına malikəm. Biz tərəfdaş kimi həm Azərbaycana, həm də Ermənistana regional əlaqələrin qurulması, nəqliyyat dəhlizləri və digər sahələrdə dəstək verirk və əməkdaşlığı davam etdirməyə hazırıq".

Bu fikirləri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono Naxçıvana səfərinin məqsədini şərh edərkən bildirib.

Onun sözlərinə görə, yolların açılması və əməkdaşlığın qurulması bütün regionun rifahı üçün böyük əhəmiyyət daşıyır: "Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın qarşılıqlı səyləri nəticəsində biz sülh və normallaşma prosesində yeni mərhələyə qədəm qoymuşuq. Bu dövr Azərbaycan və Ermənistan arasında tammiqyaslı normallaşma, eyni zamanda bütün regionun inkişafı üçün yeni imkanlar yaradır. Naxçıvan çox mühüm strateji zonadır. Burada uzun illər bağlı qalmış yolların açılması təkcə Azərbaycan və Ermənistana deyil, bütün region ölkələrinə fayda verəcək. Bu, kommunikasiya və regional əlaqələrin inkişafı baxımından olduqca vacibdir".

Maqdalena Qrono qeyd edib ki, Naxçıvan Avropa və Asiya qitələri arasında yerləşən qlobal infrastruktur marşrutunun tam mərkəzində qərarlaşdığı üçün gələcəkdə mühüm logistika mərkəzinə çevriləcək: "Əlbəttə, Naxçıvan mühüm strateji əhəmiyyətə malik bir ərazidir və burada bir çox əsas kommunikasiya xətləri və yolları kəsişir. Təəssüf ki, bu yolların bir çoxu uzun illərdir, bağlı vəziyyətdədir və onlar, eyni zamanda keçmiş münaqişənin bir hissəsini təşkil edib. Regionda kommunikasiya imkanları məhdud olub. Lakin hesab edirəm ki, hazırda bu yolların açılması və ümumilikdə, nəqliyyat-kommunikasiya infrastrukturunun inkişafı bütün region ölkələrinə fayda verəcək. Məhz bu kontekstdə biz buradayıq. Həm yolların açılması, həm də Avropa ilə Asiya, o cümlədən Orta Asiya ölkələri arasında əlaqələrin qurulması və genişləndirilməsi bizim üçün prioritet məsələlərdəndir".



Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vurğulayıb ki, Naxçıvanın mövcud dəmir yolu infrastrukturu ilə tanışlıq və aparılan görüşlər gələcək əməkdaşlıq üçün geniş perspektivlər vəd edir.

O bildirib ki, səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüş konstruktiv və məhsuldar keçib: "Görüşdən çox razı qaldım, çünki əməkdaşlığa açıq və səmimi müzakirələr aparıldı. Naxçıvanın sərhədyanı ərazilərini ziyarət etmək imkanımız oldu. Bu, qarşılıqlı əlaqələrin hələ başlanğıcıdır və Vaşinqton görüşündən qısa müddət sonra bu prosesə start verilməsi çox təqdirəlayiq haldır. Təbii ki, dəmir yolu infrastrukturu bizim gündəliyimizdə mühüm yer tutur. Biz texniki uyğunluq araşdırmaları apararaq bu layihəyə töhfə verməyə hazırıq".

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi qeyd edib ki, səfər çərçivəsində sosial-iqtisadi inkişaf, turizm, kənd təsərrüfatı, inşaat və digər sahələr üzrə əməkdaşlıq imkanları da geniş şəkildə müzakirə olunub: "Avropa Komissiyasını təmsil edən həmkarlarım da bu səfərdə iştirak edirlər və yeni kontekstlərdə müzakirələri davam etdirməyə kifayət qədər maraqlıyıq".

"Naxçıvanın böyük turizm potensialı mövcuddur. Zənnimcə, avropalıların Naxçıvanın bu inanılmaz gözəlliyini görmələri çox yaxşı olardı," – deyə Maqdalena Qrono əlavə edib.


































# Naxçıvanda son 30 ilin ən böyük təhsil uğuru

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində 2024-2025-ci tədris ili son 30 ilin ən uğurlu nəticələri ilə yadda qalıb. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması muxtar respublikada bütün sahələrin inkişafı üçün stimuldur. Dövlət Proqramında digər sahələr kimi, təhsilin inkişafı ilə də bağlı prioritetlər müəyyənləşdirilmişdir. Proqramın icrası Naxçıvan təhsilində yeni bir mərhələnin başlanğıcını qoymaqla təhsilin inkişafına öz töhfəsini verməkdədir.

*Uğurlu nəticələr*

Dövlət İmtahan Mərkəzinin qəbul imtahanlarında 500-700 bal arası nəticə göstərən 379 məzun qeydə alınıb ki, bu da son 30 ilin ən yüksək göstəricisidir. 2024-2025-ci tədris ilində ümumtəhsil məktəblərinin 473 məzunu, IX siniflər üzrə 196-sı, XI sinifləri üzrə isə 277-si fərqlənmə attestatına, 4 məzun isə qızıl və gümüş nişana layiq görülüb. Qeyd edək ki, təhsil nazirinin müvafiq əmrinə əsasən Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin məzunu Oruc Heydərov, Şahbuz rayon Badamlı qəsəbə tam orta məktəbinin məzunu Səma İsmayılova, Naxçıvan Qarnizonu tam orta məktəbinin məzunları Fidan Ağazadə və Fidan Bədəlova qızıl nişana layiq görülən şagirdlər sırasında yer alıblar.

Cari tədris ilində Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərini 3956 məzun bitirmişdir ki, bunlardan 2080-i oğlan, 1876-sı isə qızlardır. Məzunların 3565-i yəni 94%-i ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak edib, 1857 nəfər ilk seçim turunda tələbə adını qazanıb ki, bu da ötən tədris ilinin müvafiq dövrü ilə müqayisədə 104 nəfər çoxdur.

*Ölkədaxili və beynəlxalq müstəvidə əldə olunan nailiyyətlər*

Naxçıvan məktəbliləri beynəlxalq imtahan və müsabiqələrdə də parlaq nəticələr göstəriblər. Belə ki, ölkə üzrə təşkil olunan Bebras, Cerebry, Bilbacar, Hakaton, respublika fənn müsabiqələrində, həmçinin Astronomiya, LütfiZadə, Hippo, Kenquru, Qərbi Azərbaycana Qayıdış, VII İngilis dili və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən Nəsrəddin Tusi adına fizika-riyaziyyat fənləri və Yusif Məmmədəliyev adına kimya və biologiya fənləri üzrə II Kimya-Biologiya olimpiadaları təşkil olunub, ümumilikdə, 56 şagird qalib olub.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq şagird nailiyyətlərinin mərkəzləşmiş qaydada monitorinqinin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən yaradılan Monitorinq Mərkəzinin imkanlarından istifadə olunaraq IX-XI siniflər üçün buraxılış və blok imtahanı formatına uyğun 7 monitorinq təşkil olunub, monitorinqlərdə 30 minə yaxın şagird iştirak edib.

Naxçıvan məktəbliləri ilk dəfə olaraq PISA 2025 – Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında iştirak ediblər.

Naxçıvanda ilk dəfə olaraq Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin X sinif şagirdi Oruc Cabbarlı respublika fənn olimpiadasında informatika fənni üzrə qalib olmuş, ümumilikdə isə 3 şagird respublika fənn olimpiadasında medal qazanmışdır. 1 məktəbli isə V Azərbaycan Astronomiya Olimpiadasında qalib olmuşdur. Bununla yanaşı, Naxçıvan məktəbliləri Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalında I yerin qalibi olublar.

Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Nərmin Əliyeva SAT (ABŞ və digər xarici universitetlərə qəbul üçün keçirilən beynəlxalq imtahan) imtahanı üzrə 1600 ballıq sistemdən 1580 bal nəticə göstərərək ölkə birinciliyi və dünya üzrə ən yüksək nəticə göstərən 1 faizlik tələbə siyahısına daxil olub. Həmçinin Naxçıvan Qızlar Liseyinin XI sinif şagirdi Nuray Cabbarlı 22 ölkədən müraciət edən 35.000 namizəd arasından seçilərək beynəlxalq FLEX proqramına qəbul edilərək ABŞ-da təhsil almaq imkanı qazanıb. Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin şagirdi Elgün Şükürov TECNEST təqaüdünə və CİSCO beynəlxalq təqaüd və sertifikatların layiq görülüb. Ümumilikdə, Naxçıvan məktəbliləri müxtəlif olimpiada və müsabiqələrdə 56 medal əldə ediblər.

*Müəllimlərin peşəkarlığının artırılması*

2024-cü ildə ilk dəfə olaraq muxtar respublikada təhsilverənlərin sertifikatlaşdırılması prosesi keçirilib, 366 müəllimdən 153-ü 51 və daha yüksək, 2 müəllim isə maksimum nəticə – 60 bal toplamaqla yüksək nəticə göstərib. Müəllimlərin işə qəbulu mərkəzləşdirilmiş qaydada aparılaraq 174 namizəd məktəblərə və peşə təhsil müəssisələrinə təyin olunub. Nəticədə, 123 namizəd ümumtəhsil məktəblərinə, 10 nəfər isə peşə təhsili müəssisələrinə, həmçinin 41-i müddətli müqavilə əsasında ümumi təhsil və peşə təhsil müəssisələrinə qəbul olunaraq ixtisasları üzrə təyinat alıblar. Naxçıvanda ilk dəfə İbtidai sinif müəllimlərinin və Riyaziyyat müəllimlərinin forumları təşkil olunub, tədbirlərdə ölkənin müxtəlif bölgələrindən 2500-ə yaxın pedaqoq iştirak edib.

Naxçıvanda ilk dəfə Azərbaycan Respublikasının Təhsil İnstitutu ilə əməkdaşlıq çərçivəsində məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçi-müəllim və metodistlərin peşəkarlığının yoxlanılması üçün diaqnostik qiymətləndirmə aparılıb.

Tədris yardımçı heyətin işə qəbul prosesi mərkəzləşmiş müsabiqə yolu ilə uğurla icra olunmuşdur.

Cari tədris ilində müəllimlərin bilik və bacarıqlarının artırılması üçün Azərbaycan Gənc Müəllimlər Assosiasiyası və AzEdu Təhsil Portalı ilə birgə "Pedaqoji Həmrəylik: Təcrübədən Gələcəyə" adlı konfrans keçirilib. Naxçıvanda ilk dəfə olaraq İbtidai Sinif Müəllimlərinin Naxçıvan Forumu və Naxçıvan Riyaziyyat Müəllimlərinin I Təhsil Forumu keçirilib. Forumlarda Naxçıvan Muxtar Respublikasından və ölkəmizin müxtəlif bölgələrini təmsil edən 2500-ə yaxın müəllim iştirak edib. Həmçinin məktəb psixoloqları üçün "Psixoloqların peşəkar bacarıqlarının inkişafı" və "Məktəb psixoloqunun fəaliyyətində süni intellektdən istifadə" mövzusunda təlimlər təşkil edilmişdir.

Naxçıvanda ilk dəfə olaraq "Maarifçi" tələbə-məzun təcrübə proqramının icrasına başlanılıb və "Müasir metodist" layihəsinə start verilib.

Naxçıvan Muxtar Respublikasında ümumi təhsil müəssisələrinin və təhsilin idarəetmə orqanlarının Elm və Təhsil Nazirliyinin mövcud məlumat bazalarına və elektron xidmətlərinə inteqrasiyanın təmin edilməsi 2024-2025-ci tədris ilində də davam etdirilib. İnteqrasiya çərçivəsində Elm və Təhsil Nazirliyinin 37 adda elektron məlumat bazasından 30-na qoşulma prosesi tamamlanıb, növbəti tədris ilindən digər elektron məlumat bazalarına qoşulma prosesinin də yekunlaşdırılması nəzərdə tutulub.

*Təhsil infrastrukturunda yeniliklər*

Dövlət Proqramına uyğun olaraq ümumi təhsil müəssisələrində 154 yeni STEAM otağı istifadəyə verilib. Naxçıvanda şagird nailiyyətlərinin mərkəzləşmiş qaydada monitorinqinin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən Monitorinq Mərkəzi yaradılıb. Dövlət Proqramı çərçivəsində ümumi təhsil müəssisələrində yeni tədris ilindən icma əsaslı məktəbəqədər təhsil müəssisələrinin yaradılması üçün işlər başa çatdırılıb.

2024-cü ilin yanvar ayından Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 236 yerlik STEAM Təlim-Tədris Mərkəzi fəaliyyətə başlayıb, burada CNC-3D texnologiyası, qrafiki dizayn, elektronik proqramlama-mühəndislik, dron uçuş idarəçiliyi və kodlaşdırılması, robototexnika, proqramlaşdırma və digər müasir sahələr üzrə dərnəklərə 200-dən çox şagird cəlb olunub. Peşə təhsilində islahatlar nəticəsində Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsi və Naxçıvan Şəhər Peşə Liseyi birləşdirilərək onların bazasında Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi publik hüquqi şəxsi yaradılıb, 2024-2025-ci tədris ili üzrə 462 nəfər peşə təhsilinə qəbul olunub.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Respublika fənn olimpiadasında qalib olan Naxçıvan məktəblisi müsabiqədənkənar ADA Universitetinə qəbul olub




Respublika Fənn Olimpiadasında riyaziyyat fənni üzrə III yerin qalibi olan Naxçıvan şəhər Afiyyəddin Cəliov adına 12 nömrəli tam orta məktəbin məzunu Oruc Heydərov ADA Universitetinin tədrisi ingilis dilində olan Kompüter elmləri ixtisasına müsabiqədənkənar qəbul olub.

Qeyd edək ki, Oruc Heydərov Dövlət İmtahan Mərkəzi tərəfindən XI siniflər üzrə keçirilən buraxılış imtahanında 281,2, qəbul imtahanında isə 384.5 olmaqla, ümumilikdə, 665.7 bal toplamışdır.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların siyahısı və onların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu Qaydası"na əsasən beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri istənilən (dövlət və özəl) ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul oluna bilirlər.

## Mədəniyyət Nazirliyində konfrans keçirilib



Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən musiqi təhsili müəssisələrinin müəllimlərinin 1-ci konfransı keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra Dövlət Himni səsləndirilib.

Konfransda çıxış edən mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov musiqi təhsili müəssisələrinin fəaliyyət göstəriciləri üzrə 5 illik analitik təhlili və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiya qərarına əsasən təsdiq edilmiş incəsənət məktəb və mərkəzlərinin nümunəvi Əsasnaməsi, təlimat və tədris planı ilə bağlı konfrans iştirakçılarını məlumatlandırıb.

Nazirliyin Aparat rəhbəri Kamandar Ələkbərov ölkədə tədbiq olunan musiqi təhsili müəssisələrinin təhsilverənlərinin attestasiya məsələsi ilə bağlı çıxış edərək 2026-cı ildə keçiriləcək attestasiyanın şərtləri və zəruri hazırlıq məsələləri barədə danışıb.

Sonra nazirlik aparatının əməkdaşı Həcərxanım Məmmədova 2025-2026-cı tədris ilindən tətbiq olunacaq İncəsənət Məktəblərinin Elektron Məlumat Sisteminin (İMES) istifadə qaydaları və nəzarət mexanizmi haqqında ətraflı məlumat verib.

Sonda konfransın müzakirəsində olan məsələlərlə bağlı müəllimlərin sualları cavablandırılıb.

## Növbəti bir qrup ittifaq üzvünün Ağbulaqda istirahəti təşkil edilib



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası yay mövsümündə üzvlərin istirahətinin təşkili məqsədilə daha 44 nəfər ittifaq üzvünün Ağbulaq İstirahət Mərkəzinə səfərini təşkil edib.

Növbəti istirahət proqramı çərçivəsində iştirakçılar üçün maraqlı tədbirlər planı hazırlanıb. Proqrama intellektual bilik yarışları, canlı musiqi axşamı, müxtəlif əyləncə oyunları, eləcə də şahmat və stolüstü tennis üzrə turnirlər daxil edilib. İştirakçılar, həmçinin kanat yolu vasitəsilə Ağbulağın füsunkar təbiət mənzərəsini seyr etmək imkanı qazanıblar.

Qeyd edək ki, yay mövsümü ərzində Həmkarlar İttifaqları Şurası tərəfindən təşkil edilən istirahət proqramına qatılan üzvlər yollayışın cəmi 15 faizini ödəməklə hər həftənin şənbə və bazar günlərini Ağbulaq İstirahət Mərkəzində səmərəli və mənalı şəkildə keçirmək imkanı əldə edirlər.

## Naxçıvan Muxtar Respublikası Hemodializ Mərkəzi üçün alınan tibbi avadanlıqların yerləşdirilməsi prosesi həyata keçirilir



Naxçıvan Muxtar Respublikasında səhiyyə infrastrukturunun müasirləşdirilməsi istiqamətində atılan addımlar çərçivəsində Hemodializ Mərkəzi üçün, ümumilikdə, 53 ədəd hemodializ aparatı və 48 ədəd pasiyent komfortunu təmin edən hemodializ kreslosu alınıb.

Kreslolar 3 mühərrikli idarəetmə sisteminə, Wi-Fi bağlantısı və qulaqcıq çıxışına malik olmaqla müalicə zamanı pasiyentlərin rahatlığını təmin etməyə yönəlib.

Hazırda bu avadanlıqların bir qismi – hemodializ cihazları və funksional kreslolar artıq mərkəzə təhvil verilib, yerləşdirmə prosesi həyata keçirilir.

Qeyd edək ki, rayonlarda da əhaliyə göstərilən hemodializ xidmətinin keyfiyyətinin artırılması məqsədilə yaxın zamanda Şərur Regional Tibb Mərkəzinin tabeliyində olan Şərur Rayon Mərkəzi Xəstəxanası və Kəngərli Rayon Mərkəzi Xəstəxanasına, həmçinin Culfa Regional Tibb Mərkəzinin tabeçiliyində fəaliyyət göstərən Culfa və Ordubad Rayon Mərkəzi xəstəxanalarına da hemodializ cihazları və kresloları təhvil verilib.

## Yeni tədris ili üçün 170 mindən artıq dərslik muxtar respublikaya gətirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən yeni tədris ilinə hazırlıq işləri sürətlə davam etdirilir. Ümumtəhsil məktəbləri üçün dərslik tələbatı əvvəlcədən müəyyənləşdirilərək sifarişlər verilib. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 170 mindən artıq dərslik muxtar respublikaya gətirilib.

Yaxın günlərdə dərsliklərin şəhər və rayon təhsil şöbələrinə paylanılması prosesinə başlanılacaq. Proses yekunlaşdıqdan sonra isə təhsil şöbələri tabeliklərində olan təhsil müəssisələrinə kitabların təhvil verərək şagirdlərin dərsliklərlə təminatını həyata keçirəcək.

Qeyd edək ki, 2025-2026-cı tədris ili üçün bəzi dərsliklərdə məzmun və tərtibat baxımından yenilənmələr aparılmışdır. Bir neçə adda dərsliklər təkmilləşdirilərək yenidən nəşr olunmuşdur.

Yeni tədris ilindən VI sinif üzrə Azərbaycan tarixi fənni də tədris dilindən asılı olmayaraq, bütün məktəblərdə dövlət dilində tədris olunacaq. Buna müvafiq olaraq həmin dərslik dövlət dilində nəşr olunmuşdur.



## "Ərbabın iş yeri" və ona bitişik tarixi bina bərpa olunacaq



*Dağlar qoynunda yerləşən səfalı diyar Ordubada ayaq basdıqda tarix-memarlıq abidələri öz naxışları ilə sanki hər gələni salamlayır. Görkəmli şəxsiyyətlərinin şanı ilə bu naxışlı yollarda ayaq tutub tarixin uzaq və yaxın izlərinə şahidlik etmiş olursan.*

Bu minvalla ad-san sahiblərindən olan, Ordubadın xeyirxah, işgüzar insanlarından Ərbab adlı şəxsin kimliyi ilə maraqlandıq. Ərbab adının mənasına da baxdıqda görürük ki, "ağa, cənab, sahib" sözləri anlamında işlənirmiş.

Bu gün Ordubad şəhərinin mərkəzində bizi qarşılayan ikimərtəbəli köhnə bina, həmin o zəhmətsevər insanın, Ordubadın varlı təbəqəsindən olan Ərbabın iş yeridir. Hazırda bu bina fəaliyyəti üçün yararsız halda olmasına baxmayaraq, tarixi bina kimi oraya üz tutan qonaqların marağını özünə çəkir. Bir vaxtlar bu köhnə iş yeri Ordubad şəhərində ilk baramaaçan (ipək) fabriki kimi 1865-ci ildə fəaliyyətə başlayıb. Bu gün ordubadlıların hörmətlə Ərbab kimi adını çəkdiyi Rzaqulu Rzayev həmin fabrikin qurucusu olmuşdur. Fabrikin ilk direktoru da olan bu şəxs işgüzarlığı və xeyirxahlığı ilə Ordubadda hər zaman nümunəvi şəxslərindən biri kimi xatırlanır. Fabrik yaradılarkən buraya 96 çeşməli 24 ədəd dəzgah gətizdirilir. Həmin dövr üçün çox əhəmiyyətli işlərdən biri olan baramaçılığın inkişafı bu sahəyə öz töhfəsini vermişdir. Yerli əhalinin dolanışığı üçün fabrikə çoxlu işçi qüvvəsi cəlb edən Ərbabın bu xeyirxah əməli sayəsində qədim baramaçılıq ənənələri yenidən yaşadılmağa başlayıb. Baramaçılığın inkişafı prosesində digər təbii amillərlə yanaşı, zəhmətsevər ordubadlıların tarixən qazanmış olduğu təcrübə də mühüm rol oynamışdır.

Ordubad şəhər sakini Tahir Abbasov deyir ki, bu gün muxtar respublikanın hər yerində geniş abadlıq-quruculuq işləri gedir. Təbii ki, bu qayğıdan Ordubad rayonuna da pay düşüb. İllərdir, baxımsız vəziyyətdə olan tarixi "Ərbabın iş yeri" şəhərimizin mərkəzində yerləşir. Bu gün sevincliyik ona görə ki, bu tarixi bina da dövlətimiz tərəfindən bərpa olunacaqdır. Rayon sakinləri adından dövlətimizə minnətdarlığımızı bildiririk.

Ordubad Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Bahar Əliyeva deyir ki, bir sıra xeyirxah işlərə imza atan Ərbabın muzeyimizdə bir neçə yadigarı var. Belə ki, muzeydə Ərbaba aid "Zınqırovlu sandıq" saxlanılır. O, qiymətli əşyalarını burada saxlamaq üçün onu İsveçrədən gətizdirib. Yanmayan dəmirdən hazırlanan, ümumi çəkisi 347 kilo olan sandığın içərisində kiçik bir seyf də var. Sandığın diqqətçəkən xüsusiyyətlərindən biri də onun 1 açarla və 18 dillə bağlanmasıdır. Bu muzeydə Ərbaba aid digər eksponat isə Fransadan gətirtdiyi iri kəfkirli saatdır. Bu saat da onun şəxsi istifadəsində olub. Bu saatın zəngi fasilə vaxtını bildirirmiş. Deyilənə görə, Cümə məscidinin üzərinə quraşdırılmış həmin saatın zəngi hər dəfə vurulanda, hətta onun səsi İranın bizə yaxın kəndlərinə qədər gedib çıxıb.

...Son illər muxtar respublikamızda tarixi abidələrin, tanınmış şəxsiyyətlərə məxsus mülklərin qorunmasına, təmirinə ciddi diqqət yetirilir. Məqsəd həmin abidələrə yeni həyat verilməsi və onların gələcək nəslə ötürülməsidir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında belə layihələrin öz əksini tapması, habelə investisiya layihələri istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Həmin tədbirlərin davamı olaraq Ordubad şəhərində yerləşən "Ərbabın iş yeri" və ona bitişik tarixi binanın bərpası ilə bağlı müqavilə imzalanıb.

Qeyd edək ki, "Ərbabın iş yeri" və ona bitişik tarixi binanın bərpası üçün cari ilin aprel ayında satınalma elan olunmuşdur və yaxın zamanlarda başlanılacaq bərpa işlərinin iki il müddətinə tamamlanması nəzərdə tutulub.

**Aidə İBRAHİMOVA**

















# Peşə təhsili vacib təhsil pilləsidir və işsizlik səviyyəsinin aşağı salınmasına xidmət edir

Son illər Naxçıvanda həyata keçirilən tədbirlərdən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinə də xeyli pay düşüb. Sirr deyil ki, iqtisadiyyatımızın və sosial inkişafın təməlində peşə təhsili sahəsində irəliləyişlər durur. Ona görə muxtar respublikamızda peşə təhsilinin inkişafı və müasirləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamında peşə təhsilinin inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi və əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artırılması nəzərdə tutulub.

Dövlət Proqramının icrası ilə əlaqədar görülən işlərlə bağlı daha ətraflı məlumatı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının Peşə təhsili sektorunun aparıcı məsləhətçisi Zeynəb Allahyarlıdan öyrənirik. O deyir ki, Dövlət Proqramının icrası ilə əlaqədar nazirliyin təklifləri əsasında Ali Məclisin sədri tərəfindən “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 2024-cü il 7 may tarixli Fərman imzalanıb. Fərmana əsasən Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsi və Naxçıvan Şəhər Peşə Liseyi birləşdirilərək onların bazasında “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi” publik hüquqi şəxsi yaradılıb, Şərur və Ordubad Texniki Peşə və Sürücülük məktəbləri isə “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Şərur Peşə Liseyi” və “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Ordubad Peşə Liseyi” adlandırılaraq publik hüquqi şəxsə çevrilib. Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 7 may tarixli Fərmanının icrasının təmin edilməsi barədə” 2024-cü il 3 iyun tarixdə Sərəncam imzalanıb. Sərəncamın icrası ilə əlaqədar olaraq Təhsil Nazirliyi tərəfindən müasir tipli peşə təhsili müəssisələrinin nizamnamələri tərtib olunub, layihə və təkliflər aidiyyəti orqanlarla razılaşdırılaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq olunub.

İşə qəbul prosesi haqqında danışan müsahibimiz deyir ki, 2024-cü ildən etibarən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinə işə qəbul prosesi ölkə üzrə mərkəzləşdirilmiş müsabiqə vasitəsilə həyata keçirilir. Belə ki, peşə təhsili müəssisələrində vakant olan ümumtəhsil fənləri üzrə müəllimlərin, eyni zamanda direktor və direktor müavinlərinin, ixtisas fənn müəllimləri və istehsalat təlimi ustalarının işə qəbulu prosesi test və müsahibə mərhələsi olmaqla, 2 mərhələdə keçirilir. Həmçinin peşə təhsili müəssisələrində gənclərin çağırışaqədərki hazırlıq rəhbəri və psixoloq üzrə vakant vəzifələr ümumtəhsil məktəblərinə işə qəbul üzrə keçirilən imtahanlarda nəzərə alınır, həmin vəzifələrin elana çıxarılması təmin edilir. 2024-2025-ci tədris ilində 1-i istehsalat təlim ustası, 3-ü direktor, 2-si gənclərin çağırışaqədərki hazırlıq rəhbəri, 10-u ümumtəhsil fənləri üzrə müdətsiz, 3-ü isə müddətli müqavilə əsasında olmaqla, ümumilikdə, 19 nəfər işə qəbul olunub. 2025-2026-cı tədris ili üçün ümumtəhsil fənləri üzrə 12 vakant yer müsabiqəyə çıxarılıb. İxtisas fənn müəllimi və istehsalat təlimi ustası vəzifələri üzrə isə 71 yer müsabiqəyə çıxarılıb.

Zeynəb xanım onu da qeyd edir ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinə 27 adda 35 ixtisas üzrə 700 yerlik qəbul planı tərtib olunmuş və 3 müəssisə üzrə 462 tələbə peşə təhsilinə cəlb edilmiş, tələbələrdən 138-i təhsilini başa vurmuş, 121-i müxtəlif səbəblərdən (müddətli həqiqi hərbi xidmət, orta ixtisas təhsili müəssisəsinə qəbul, dərsə davamiyyəti zəif, könüllü olaraq tədrisdən imtina və s.) tələbələr sırasından azad olunmuş, 203 tələbə isə növbəti tədris ilindən təhsilini davam etdirəcəkdir. Bununla yanaşı, 26 avqust-2 sentyabr 2025-ci il tarixlərdə qəbulun II mərhələsi həyata keçirilib. Sentyabr ayının 14-dək isə III mərhələsi aparılacaq, boş qalan plan yerlərinə tələbə qəbulu həyata keçiriləcəkdir. Onu da bildirək ki, 2025-ci il yanvarın 21-dən etibarən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Naxçıvan Regional “ASAN xidmət” mərkəzində ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən digər təhsil pilləri ilə yanaşı, peşə təhsili müəssisələrinə tələbə qəbulu xidmətinin göstərilməsinə də başlanılıb.




Müsahibimiz vurğulayır ki, 2025-2026-cı tədris ilində Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində 18 ixtisasın tədrisi nəzərdə tutulur ki, onlardan kargüzar və bərbər ixtisasları ümumi orta təhsil bazası üzrə 1 illik müddətinə ilk peşə, əməliyyatçı-mühasib, sığorta işçisi, dayə, aşpaz, qənnadçı, şirniyyatçı, bərbər-vizajist-manikürçü, xalçaçı, mebel ustası, plastik qapı və pəncərə ustası və yolun və süni qurğuların cari təmiri və saxlanması üzrə briqadir ixtisasları tam orta təhsil bazası üzrə 1 illik müddətinə texniki peşə, dərzi, avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü və kombi və kondisioner ustası ixtisasları ümumi orta təhsil bazası üzrə 3 illik müddətinə texniki peşə (tam orta təhsil almaqla), baytarlıq və heyvandarlıq işi, kənd təsərrüfatı və inşaat texnikası (maşınlarının) istismarı ixtisasları ümumi orta təhsil bazası üzrə 4 illik, moda dizaynı ixtisası tam orta təhsil bazası üzrə 3 illik müddətinə yüksək texniki peşə təhsil səviyyəsi üzrə aparılacaqdır.

Müsahibimiz diqqətə çatdırır ki, Şərur Peşə Liseyində 8 ixtisasın tədrisi nəzərdə tutulur ki, onlardan bitkiçilik mütəxəssisi, dərzi, bərbər-vizajist-manikürçü, elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis, rabitə quraşdırıcısı-kabelçi və avtomobil diaqnostikası və təmiri ustası ixtisasları tam orta təhsil bazası üzrə 1 illik müddətinə texniki peşə, geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası) və dəmir yolu stansiya və keçid növbətçisi ixtisasları ümumi orta təhsil bazası üzrə 3 illik müddətinə texniki peşə (tam orta təhsil almaqla) təhsil səviyyəsi üzrə aparılacaq. Ordubad Peşə Liseyində 9 ixtisasın tədrisi nəzərdə tutulur ki, onlardan kargüzar və bərbər ixtisasları ümumi orta təhsil bazası üzrə 1 illik müddətinə ilk peşə, veb-dizayner və proqram təminatçısı, aşpaz, qənnadçı, şirniyyatçı, bərbər-vizajist-manikürçü və xalçaçı ixtisasları tam orta təhsil bazası üzrə 1 illik müddətinə texniki peşə, rabitə avadanlıqlarının quraşdırıcısı və dəmiryolu stansiyasının növbətçisi ixtisasları ümumi orta təhsil bazası üzrə 3 illik müddətinə texniki peşə (tam orta təhsil almaqla) təhsil səviyyəsi üzrə aparılacaq.

Zeynəb xanım onu da vurğulayır ki, peşə təhsilinin əsas məqsədi işəgötürənlərin tələblərinə uyğun gələn kadrların hazırlanması və işsizlik səviyyəsinin azaldılmasıdır. Qısa zaman müddətində kadrların hazırlanması prosesində ixtisas üzrə təhsilalanların bilik, bacarıq və vərdişlərini möhkəmləndirən, təkmilləşdirən praktiki fəaliyyət – istehsalat təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin tələbələrinin 2025-ci ilin aprel ayından etibarən istehsalat təcrübəsinə göndərilməsi diqqətdə saxlanılmış, aprel ayı ərzində 136, may ayından isə əlavə 49 olmaqla, ümumilikdə, aprel-iyun ayları ərzində 185 tələbə istehsalat təcrübəsinə cəlb olunmuş, təcrübə keçirilən müəssisələrlə müqavilə bağlanmışdır. Bir daha qeyd etmək istəyirəm ki, peşə təhsili bir insanın müəyyən bir sahədə ixtisaslaşması və iş həyatına hazırlanması üçün vacib bir təhsil pilləsidir. Bu təhsil iş yerlərinin tələblərinə uyğun kadrların yetişdirilməsində mühüm rol oynayır və işsizlik səviyyəsinin aşağı salınmasına kömək edir. Bununla yanaşı, peşə təhsili insanlara öz potensiallarını reallaşdırmaq imkanı verir. Bu da onların sosial və iqtisadi vəziyyətlərinin yaxşılaşmasına kömək edir. Ümumilikdə, peşə təhsili həm fərdlər, həm də cəmiyyət üçün böyük faydalar gətirən bir təhsil pilləsidir.

Zeynəb xanım qeyd edir ki, 2024-2025-ci tədris ilinin qəbul nəticələrinə nəzər saldıqda görərik ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən 3 peşə təhsili müəssisəsinə qəbul olunanlardan 193-ü qadın, 269-u isə kişilərdir. Ümumilikdə, peşə təhsili sahəsində ölkə üzrə 2024-cü ilin xülasəsinə baxdıqda məlum olur ki, qəbul olunan tələbələrdən kişilərin sayı (64 faiz) qadınların sayından (36 faiz) üstünlük təşkil edib. 2025-2026-cı tədris ilinin qəbul prosesi hazırda davam edir. Bu günə olan məlumatlara əsasən deyə bilərəm ki, I mərhələ üzrə qəbul olunan 498 tələbədən 270-i qadın, 228-i isə kişidir. Qəbulun II və III mərhələsi sentyabr ayının 14-dək davam edəcək. Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində tədrisi nəzərdə tutulan bərbər-vizajist-manikürçü ixtisası isə həm kişilər, həm də qadınlar üçün nəzərdə tutulub. Mebel ustası, plastik qapı və pəncərə ustası və yolun və süni qurğuların cari təmiri və saxlanması üzrə briqadir ixtisaslarının, Şərur Peşə Liseyində tədrisi nəzərdə tutulan elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası) ixtisaslarının kişilərdən ibarət qrup formalaşdıracağını, Ordubad Peşə Liseyində tədrisi nəzərdə tutulan aşpaz və qənnadçı, şirniyyatçı ixtisaslarında qadın tələbələrin, rabitə avadanlıqlarının quraşdırıcısı ixtisasında kişi tələbələrin üstünlük təşkil edəcəyini demək olar.

Amma ötən tədris ilində belə bir hal da müşahidə etdik ki, 1 illik müddətinə tədris olunan avtomobil üzrə elektrik ixtisasında təhsil alan tələbələr sırasında 1 nəfər qadın da var idi.

Aldığımız məlumatlardan da görünür ki, peşə təhsili artıq müasir dövrdə günün tələbinə çevrilib. Muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırıb. Bu səbəbdən yeni peşə və sənət sahələrinin yaranması özü ilə bərabər, ixtisaslı kadrlara olan tələbatı da artırır.

Bülbül RÖVŞƏNQIZI

# Tarixə söykənən Cəlilkənd





✍ Ceyhun MƏMMƏDOV

Cəlil Məmmədquluzadənin "Çay dəstgahı" alleqorik dramının remarkasına diqqət etsək, kəndlərdə bizi kresloda əyləşən samovar, stullarda stəkan, qaşıq, podnos və yaxud oturan çaynik qarşılamır. Biz də, öz növbəmizdə, müqəssirin kim olduğunu axtarmağa yox, kəndlilərdən "Nicat yolu haradadır?" sualına cavab tapmaq üçün, adətən, uzaq diyarlara yollanırıq. Bu minvalla magistral yolun kənarında yerləşən, sanki zamanın içində itib gedən, tarixə ünü çatdığı qədər "əl" uzadan Cəlilkəndə üz tuturuq. Yol kənarında yerləşən kəndlərin, adətən, başqa bir susqunluğu olur, başqa bir düşüncəyə insanı sövq edən səssizliyi var: burada yolun səsi var, kəndin isə səssizliyi. Gözəgörünməz bir təvazökarlıqla gizlənmiş bir kənd düşünün: avtomobillər sürətlə yanından keçir, amma heç kim bu kəndin nəbzini eşitmir.

Cəlilkənd – bu kəndin adını, bəlkə də, çox az adam eşidib. Bura sanki tarixlə bu gün arasında ilişib qalan, yaddaşla gələcək arasında sıxışan yerdir, adı sadə, öz taleyi isə çox mürəkkəb. XIX əsrdə Şərur-Dərələyəz qəzasının mərkəzi olan kənd, bir zamanlar ümid yeri idi. Ötən əsrin ortalarında kəndin adı dəyişib, amma havası dəyişməyib: torpağın qoxusu yenə eynidir, uşaqlar kəndin dar yollarında qaçanda sanki zaman burada dayanır. Amma lövhədə yazılan ad artıq başqadır. Köhnə ad isə insanların yaddaşında, köhnə məktub ünvanlarında, xatirələrdə və kəndin girişində yerləşən köhnə hamamın üzərində yazılan yazıda yaşayır. Adın dəyişməsi bəzən, sadəcə, bir rəsmi sənəd işi kimi görünə bilər, ancaq kəndin sakinləri üçün bu dəyişiklik bir dövrün sonu, başqa bir mərhələnin başlanğıcıdır. Hər kəndin adı onun kimliyidir – ad dəyişəndə sanki bir az yaddaş da köçür. Yeni adla barışmaq vaxt aparır, Cəlilkənd kəndinin sakinləri hələ də yaşadıqları yeri deyərkən bəzən köhnə addan istifadə edirlər. Bu, tarixə söykənən bir kəndin unudulmadığını göstərir.

Bəzən bir adın dəyişməsi, kəndin tarixini də dəyişə bilir. Yeni ad, bəlkə də, yeni imkanlara, yeni maraqlara yol açır. Kəndə gələnlər bu adla maraqlanır, "Adı niyə dəyişib?" – deyə soruşurlar, elə bizim kimi. Bu sual kəndi yenidən danışdırır, yenidən gündəmə gətirir. Magistral yoldan keçənlər, bəlkə, bir baxışla bu adla tanış olurlar. Amma kəndin özü – mərkəzi küçədə yaşı 300-ü haqlamış tut ağacı, divarlardakı çatlar, sükut içindəki səslər – hələ də eyni kənddir. Ad dəyişsə də, ruh qalır.

Cəlilkəndin girişində yaşlı insanlarla söhbət edirik. Onların sözləri arasından keçmişin izlərini eşitmək mümkündür: kəndin dolu həyatı, tarixi, divarlarına hopmuş uşaq qəhqəhələri…

Kənd sakini Əli kişi deyir: "Bizim üçün fərq etmir, ya köhnə, ya yeni ad. Əsas odur ki, kəndimiz sağ-salamatdır, torpağımız məhsuldardır, insanımız bir yerdədir". Onun sözlərində kəndin ruhu, tarixi ilə bağlı dərin bağlılıq hiss olunur. Əli ilə birmərtəbəli binanı göstərir: "Bax, burada bir tarix "yatır", Cəlil Məmmədquluzadə bu binada dərs deyib. Həmçinin burada dərs deyən müəllimlərdən Məmməd bəy Qaziyevin, ilk müdir Mirzə Əliməmməd Xəlilovun, Əbülqasım Sultanovun, Kərim bəy, Tağı bəy və Abbasqulu bəy Səfiyevlərin bu məktəb üçün müstəsna xidmətləri olub. Hətta bu kənddə doğulan, C.Məmmədquluzadənin dostu olan və İrəvan Müəllimlər Seminariyasında oxuyan Tağı bəy Səfiyev Qars müqaviləsinin imzalanması mərasimində Naxçıvan diyarının təmsilçisi olub".

Bu kənd Cəlil Məmmədquluzadənin yaradıcılığında da mühüm rol oynayıb. Belə ki, o zamanlar kənd sakinləri tərəfindən "Mirzə Cəlil", – deyə çağırılan böyük mütəfəkkir 1889-cu ildə kənd həyatına dair topladığı materiallar əsasında ilk qələm təcrübəsini – "Çay dəstgahı" adlı alleqorik dramını bu kənddə yazıb: "Kənd o vaxtlar mərkəz olduğu üçün burada çoxlu çayxanalar olub və həmısında da xanlar, bəylər oturarmuş. Mirzə Cəlilə isə burada oturmağa icazə vermirmişlər. Günlərin birində bəylər onun çayxanada oturmasına icazə verir və Mirzə Cəlilin burada gördükləri onu heyrətləndirir. Və nəticədə, kəndin içindən axan çayın üzərində bu möhtəşəm dramı yazır. Dramda isə həmin dövrün xan və bəylərinin yaşayışı, hərəkətləri çılpaqlığı ilə öz əksini tapıb".

...Kəndin girişində – elə qədim məktəbin qarşısında bir neçə iri çinar ağacı diqqətimizi cəlb edir. Ağacların kölgəsində dayanan yaşlı kənd sakinləri söhbətə dalıb: onların üzündəki qırışlar bu kəndin keçmişinin xətlərini xatırladır – kəndin zamanla dəyişən adı, torpağa bağlı həyat və sair. "Bura əvvəllər başqa adla tanınırdı", – deyə Sadiq dayı danışır. "Adını dəyişdilər, amma xasiyyəti dəyişmədi kəndin. Yenə də eyni yerdədi, yenə də eyni səssizlikdə sakit yaşayırıq. 50-60 il öncə dəyişilən ad kəndimizə fərqli nəfəs gətirdi. İndi məktəbimiz də yenidən təmir olunub, Mirzə Cəlilin adını daşıyır, uşaqlar da bu kəndin tarixi ilə yeni kimliklə böyüyürlər. Bu onlara həm də mənəvi güc verir". Hər dəyişiklikdə olduğu kimi, burada da bəziləri üçün adın dəyişməsi qarışıqlıq, yadlıq deməkdir. Köhnə ünvanlar, sənədlər, xatirələr hələ də köhnə adla bağlıdır. Kəndin yaşlı sakinləri üçün bu, bir az da yaddaşın sarsıntısıdır.

Kənddə olarkən bir suala cavab verməkdə çətinlik çəkirik: "Yol bu kənddən – qapıdan keçir, amma dayanıb bir "Necəsiz?" deyən yoxdur. Bu yol insanları kəndin qədimliyini özündə əks etdirən, XIX əsrə aid olan (kənd sakinləri deyir ki, əslində, bu, XVI əsrə aiddir – C.M.) buxanaya aparır. Hansı ki həmin dövrdə yalnız Naxçıvan şəhəri, Ordubad və Cəlilkənddə inşa edilən dövlət əhəmiyyətli memarlıq abidəsinə.

Kəndin içindən keçəndə başqa bir həqiqətin şahidi olursan: tarixi evlər, tarlada çalışan insanlar, bağda oynayan uşaqlar... Küçələr quşların ötüşmələri ilə culğaşıb. Sanki asfaltlanmış yol kəndin içindən keçir, amma ona toxunmur, keçib gedir, arxasında sükut buraxır. Kəndin mərkəzində olan bəzi köhnə binaların divarlarında yalnız xatirələr var. Ora baxdıqca bu kəndin ən böyük arzusunu hiss etmək mümkündür – yaddan çıxmamaq.

Cəlilkəndin təbiəti xüsusi gözəlliyə malikdir. Kəndin ətrafında geniş əkin sahələri, meyvə bağları və otlaqlar uzanır. Xüsusilə bu aylarda kəndin əkin sahələrində kartofçuluqla məşğul olan insanları görmək mümkündür. Gündəlik həyat sadə, amma zəngindir. Əkinçilik və heyvandarlıq kəndin əsas məşğuliyyətidir. Səhərdən axşama kimi davam edən bu əmək həyatın ritmini müəyyən edir. Adət-ənənələr isə kənd həyatının əsas tərkib hissəsidir.

...Cəlilkəndin yaxınlığında yol var, demək ki, hərəkət var, inkişaf var. "Yol yanımızdadır, amma bizə yox, şəhərə xidmət edir" kimi pessimist fikirlərlə yaşamaq lazım deyil.

Əlqərəz, reportajı tamamlayıb kənddən ayrılarkən bir uşaq velosipedlə bizə tərəf gəlir, gülümsəyir və əl edir. Bəlkə də, bu tarixi kəndin gələcəyi həmin uşağın təbəssümündə gizlidir.



## Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı



✍ Günay HACIYEVA

Vətən… Bu kəlmə hər bir insanın qəlbində fərqli şəkildə səslənir. Kimisi üçün bir ocaq, kimisi üçün doğma səs, kimisi üçün isə gözlərini açdığı torpaq. Amma bəziləri üçün Vətən, sadəcə, bir yurd deyil. Dağı ilə nəfəs alır, torpağı ilə birgə dirilir, çiçəyi ilə gülümsəyir. Mənim üçün də Vətən dağına, daşına vurğun olduğum bir ruhdur. Hər dəfə Naxçıvanın uca dağlarına baxanda düşünürəm: bu zirvələr min illərdir, susur, amma hər daşı ilə danışır. Hər qayası xalqımın inadkar iradəsini xatırladır. Bu torpağın hər parçası min bir nağıl danışır mənə – bəzisi şəhid qanı ilə yazılıb, bəzisi anaların gözyaşı ilə, bəzisi isə uşaqların gülüşü ilə. Uşaq ikən yalın ayaqla gəzdiyim bu yollar, nənəmin ovcunda saxladığı torpaq, qışın soyuğunda bacalardan çıxan isti tüstü – bütün bunlar mənim Vətənimdir. Mən bu torpağın təkcə sakini yox, həm də daşı, ağacı, çiçəyi olmaq istəyirəm. Onu tanımaq yox, yaşamaq, yaşatmaq istəyirəm.

Vətənə vurğunluq təkcə torpaqla deyil, insanla yaşanır. Bu torpağın insanı da dağlar kimi möhkəmdir, çinar kimi başı dik. Vətənə vurğun insan onun gözəlliklərini qoruyar, tarixini yaşadar, gələcəyinə yol açar. Vətənpərvərlik təkcə sözlə yox, əməl ilə ölçülər. Zaman dəyişir. Texnologiya həyatımıza yön verir. Amma dəyişməyən bir duyğu var: torpaq sevgisi, yurd sevgisi... O sevgi ki insanı dünyanın harasında olsa belə doğma bir dağın havasına kövrəldər. Vətən uzaqda qaldıqda dağları darıxar, daşları həsrətə bürünər. Biz Vətənimizi sevməklə onu qoruyuruq. Bu sevgi bizə məsuliyyət verir – dilimizi yaşatmaq, adət-ənənələrimizi davam etdirmək, mədəni irsimizi gələcəyə ötürmək məsuliyyəti. Vətənin daşına biganə qalan, gələcəyinə də uzaq düşər. Bəzən bir kənd yolunun sakitliyi, dağların sükutu, bir bulağın səsi bizə Vətənin nə qədər canlı, nə qədər dərin olduğunu anlatmaq üçün kifayət edir. O səslər bizim tariximizin, taleyimizin, milli yaddaşımızın ritmini xatırladır.

Mən bu gün bu yazını yazarkən, sadəcə, sözləri bir araya gətirmirəm. Daşları dinləyirəm, dağlarla danışıram, torpağın nəfəsini eşidirəm. Bu torpaq bizimlə danışır. Yetər ki, biz onu eşidə bilək. Səni sevmək, sadəcə, hiss deyil, borcdur, Vətən. Və mən bu borcu könüllü daşıyıram, çünki dağına, daşına vurğunam, Vətən!

*Sən mənim qəlbimin*
*ən dərin hissi*
*Yanmayan çırağın*
*sönməyən hisi,*
*Hər dağın, hər daşın*
*görünməz, sirli*
*Mən sənin ruhuna*
*vurğunam, Vətən.*

*Küləyin əsəndə dolar köksümə,*
*Ətirli bir qoxu sinər üstümə,*
*Gözlərimdən kədər axar*
*qəlbimə,*
*Dağına, daşına*
*vurğunam, Vətən.*

# Sözün ömrü oxucunun yaddaşı qədərdir

## Təranə Arifqızının "Keçidlər" kitabı haqqında

*Sənət həyatın müxtəlif vasitələrlə təzahürü – sözlər, notlar, səslər, rənglər, bəzən də, sadəcə, sükutla danışan uzun bir hekayədir. Fikirlər çox zaman rutinimizin boşluqlarında itib-batır, unudulur. Yazı isə düşüncələri həkk etməklə hər anın ömrünü əbədiyyət qədər uzada bilir. Yazı yalnız bir müəllifin deyil, həm də konkret bir dövrün, bir mədəniyyətin enerji daşıyıcısıdır. Qarşımdakı kitab oxucusunu müxtəlif janrlar və fərqli üslubların yaratdığı bir aləmə dəvət edir. Buradakı hekayələr, esselər və köşə yazılarının hər biri yalnız ona aid olan bir zaman diliminin, məkanın və düşüncənin dilidir.*




Təranə Arifqızı imzasını şeirləri ilə tanımışam, indi qarşımdakı bu kitabdan hekayə və esselərini oxuduqca fərqində oluram ki, əslində, onun üçün janrın fərqi yoxdur, bütün mətnləri həssas bir ruhun bəzən pıçıltısı, bəzən də harayıdır. "Keçidlər" kitabı oxucunu əhvalatlar, hekayələrlə tanışlıqdan daha fərqli, daha dərin təcrübəyə, düşünməyə, suallara cavab aramağa, özü ilə üz-üzə qalmağa hazır olmağa dəvət edən bir çağırışdır.

Bu kitabın sonuncu – "Haqqımda yazılanlar" fəslindəki resenziyalar və esselərin, demək olar, hamısı Təranə Arifqızının şeirləri haqqındadır. "Keçidlər" kitabında toplanan müxtəlif janrlı mətnlərlə tanış olanda elə bu nümunələrdən də şair sözü süzüldüyünü hiss etdim. Hər bir mətndə şairanə həssaslıq, qadın qəlbinin təlaş və təşviş dolu döyüntüsü duyulur. Təranə xanım Azərbaycan Yazıçılar Birliyi sıralarına qəbul olunmasından bəhs edən yazısını "Şair kimi jurnalist" adlandırıb. Elə bilirəm, esse və köşə yazılarında düşüncələrinin daha çox şairanə, poetik ifadəsini nəzərə alsaq, bu başlıq çox yerinə düşür.

Bəlkə, elə bu həssaslıq və kövrəkliyə görədir ki, kitab "Ürək" hekayəsi ilə başlayır və oxucunu ilk sətirlərdən narahat duyğulara kökləyir, gərginlikdə saxlayır. Hekayə insanın itkilərlə barış prosesinin mürəkkəbliyini göstərir, sevdiklərimizlə bağlarımızın nə qədər dəyərli olduğunu xatırladır. Təranə Arifqızı mövzularını elə günümüzün reallıqlarından götürür. Hekayələri çağdaş insanın ağrı-acısını, sevinc və ümidini, güzəranını əks etdirir.

Koronavirus pandemiyasının cəmiyyətdə yaratdığı psixoloji və sosial gərginliyi, ailə daxilindəki narahatlığı və insanların bir-birinə qarşı məsuliyyət hissini qabardan "Döyülən qapı" hekayəsi həyatda qalmaq və sevdiklərimizi qorumaq uğrunda verilən qurbanlara dəydiyini göstərir.

Təranə xanımın hekayələri simvolik mənalandırmalarla zəngindir. "Qıfıl" hekayəsində nar ağacı həm böyüməyin, həm də yurdun – evin simvolu olaraq təkrarlanan motiv kimi çıxış edir. Ceyhun keçmişinə üz tutmaqla həm də bütün çətinlikləri arxada qoyub gələcəyə inamla yol alır, hər bir addımında atasının xatirəsini yaşadır. Hekayənin sonunda qısasın rəmzi olaraq qıfılın məhz güllə ilə açılması psixoloji və dramatik kulminasiyanı təşkil edir: "Amma bu qıfıl açarla açılmazdı. İllərin acısı, nifrəti, həsrəti yığılmışdı onun içinə. Çiynindəki avtomatın qundağını sıxdı. "Bu qıfıl açılmalıdı! Mütləq açılmalıdı! Açar açmazsa, güllə açar!" Avtomatdan atəş çıxmasıyla paslı qıfılın açılması bir oldu..."

Müharibə Təranə xanımın istər hekayələrində, istərsə də köşə yazıları və esselərində xüsusi həssaslıqla yanaşdığı mövzulardan biri, bəlkə də, birincisidir; bu və ya digər dərəcədə Qarabağ dərdimizi, odundan, alovundan yanıb kül olaraq keçdiyimiz, küllərindən doğulduğumuz müharibənin ağrı-acılarını əks etdirir. Bu mətnlərdə müharibənin qandonduran vahiməli reallıqları, yaratdığı travmalar və insanın ruhuna damğaladığı dərin izləri əks olunur. "Müharibə" mənsur şeirində onun dağıdıcı və amansız siması dəqiq əks olunub. "Üzü günəşə açılan pəncərədən həyatı seyr etmək" ilə "Dağılmış evlərin, yanmış arzuların, küçələrdəki bombalanmış izlərin" təsviri arasındakı ziddiyyət müharibənin həyatın təbii axarına qorxunc müdaxiləsini əks etdirir.

"Sirli təbəssüm" hekayəsi Nəbinin başına gələnlərin əsasında yerli mədəniyyət, etnik münaqişələr və kimlik məsələlərinin ətrafında cərəyan etməklə onun "Dağlar mənimdi", – deyə, israrla özünə aid olanı qoruma əzmini ifadə edir. Nəbi üçün gücün, qəhrəmanlığın, milli identikliyin rəmzi olan dağlar coğrafi olmaqdan daha çox, mənəvi yurd yeridir, dağlar elə vətən deməkdir. Hekayədə müəllif erməni kimliyinə, məkrinə münasibətini gizlətmir; Nəbinin Simona münasibəti timsalında açıq-aydın nifrətini, ikrahını ifadə edir. Ermənı qalaycının qazanclı olmasa da, bu işdən bərk-bərk yapışması, qazanların üstünə öz mədəniyyətlərinin saxta tarixini qazıması, Nəbinin özündən iyirmi yaş böyük olan bu adamla qorxmadan, çəkinmədən savaşması, öz yerinin, yurdunun, tarixinin və mədəniyyətinin təəssübünü çəkməsi, düşmənin hiylə ilə endirdiyi zərbədən ağlını itirməsi iki millətı üz-üzə qoyan səbəbin kökünü göstərir. Nəbinin qələbəsi uzun illər sonra dünyasını dəyişəndə simasında donan qəribə, sirli təbəssümdə gizlidir. Ağlını, yaddaşını itirsə də, şüuraltından boy verən "Dağlar mənimdir" inadı, bəlkə də qələbə sorağına boyanan təbəssümün səbəbidir.

Kitabdakı müharibə, vətən mövzulu mətnlərin hər birindən əzmkarlıq da yağır, çarəsizlik də. Demək olar ki, heç bir mətndə birtərəfli yanaşma, quru, sxematik "alovlu vətənpərvərlik" pafosu yer almır. Çünki müharibə yalnız silahların danışdığı qanlı döyüşlər deyil, həm də insanın daxili mübarizəsinin, ziddiyyətli qərarlar qarşısındakı acizliyinin, itkilərin gətirdiyi uçurum boşluğu və ümidlərin solduğu əbədi payızdır. Müharibədə bombalar təkcə şəhərlərin səmasına yağıb məkanları darmadağın etmir, həm də insanın könlündəki nəğmələri susdurur, ruhun işığını söndürür, dəyərləri sarsıdır. Savaşlar dünyanı yalnız coğrafi olaraq parçalamır, qəlbən, ruhən insanları qoparır. Bütün bu ağrıları özündə cəmləyən kitabın "Köşə yazıları" fəslinin xeyli hissəsi Qarabağ müharibəsi və şəhidlər mövzusuna həsr olunub. Bu mətnlərdə Təranə Arifqızı qələbə həsrəti ilə silaha sarılmağa hər an müntəzir vətəndaş da ola bilir, döyüşə gedənlərin arxasınca bir parç su atıb yaylığının ucunu nəmli gözlərinə sıxan kövrək qəlbli qadın da...

Qeyd edim ki, janrından asılı olmayaraq, hər bir yazının əks etdirdiyi dövrə uyğun mövzusu "Keçidlər" kitabını müəyyən bir tematik ardıcıllığa kökləyir: burada daha çox vətənpərvərlik, Qarabağ müharibəsi mövzusu, məqamı gəldikcə pandemiya, tarixə, yurda və adət-ənənələrə bağlılıq mövzularında mətnlər üstünlük təşkil edir. Odur ki, belə bir toplunun ərsəyə gəlməsi yalnız müəllifin yaradıcı inkişafının dinamikasını izləmək baxımından deyil, həmçinin müəyyən bir zaman kəsimində dövrün xarakteristikasını, ictimai-mədəni dünyagörüşünü, siyasi-əxlaqi atmosferini, bir sözlə, cəmiyyətin hərtərəfli vəziyyətini analiz etmək üçün də oxucuya fürsət yaradır. Bu kitabdan ən çox sevgini duymaq olur – vətənə, insana, sözə... Təranə xanım yalnız bir fəsli "Vətən" adlandırsa da, bu kitabda mən elə başdan-başa Vətəni oxudum. Şəhidlərin müqəddəs zirvəyə ucalan yolundan, şəhid analarının əzablara rəğmən qürur abidəsi olmasından da bəhs edilir burada, ən uca məqama layiq olanların yaddaşlarda sözlə heykəli ucaldılır.

Kitabda bir neçə fərqli janrda mətnlərin toplanması müəllif kimi Təranə Arifqızının çoxşaxəli yaradıcı potensialını ortaya çıxarır. Hekayələr, əsasən, yazıçının emosional və estetik dünyagörüşünü ifadə edirsə, esse və köşə yazıları intellekt və analizlərin nəticəsini əks etdirir. Müxtəlif janrlı mətnləri bir kitaba toplamasını mən Təranə xanımın, hər şeydən öncə, özünə hesabat vermə arzusu kimi qəbul etdim. Sanki bu illər ərzində yazdıqlarını bir araya toplayıb onlara uzaqdan baxır; nəyin alınıb, nəyin alınmadığını müəyyənləşdirməyə çalışır.

Yazılarında keçmişə, yaddaşından boylanan uşaqlıq xatirələrinə qayıtmağı, tamamilə unudulan və yavaş-yavaş həyatımızdan çıxarılıb bir küncə atılan adət-ənənələrimizi xatırlatmağı da sevir Təranə xanım. Bunlar daha çox Naxçıvan ərazisində tanınan, geniş areala, bəlkə də, bəlli olmayan detallardır. Buradakı bəzi hekayələri oxuyanda elə bildim, uzaq uşaqlıq illərinə, nənəmin təndir başında xəmir yoğurduğu, fəsəli bişirib isti-isti kəsib nəvələrə payladığı zamana qonaq getdim. Kəndin gündəlik həyatını təsvir edən detallar, bu atmosferi daha da doğmalaşdıran dialektik ifadələr, sanki çoxdankı tanışınla üzbəüz söhbətləşirsən kimi canlı, hərəki danışıq dili mətndən-mətnə adladıqca müəllifin üslubuna çevrilir.

Təranə Arifqızının xüsusən esselərində keçidlər çoxluq təşkil edir; bəzən qəfil, bəzən hiss olunacaq elastikliklə ara-sıra söz əsas mətləbdən yayınır, ünvana yetişənə kimi başqa səmtlərə cığır açır, mənalar saçır. Bir də görürsən, diqqəti məğzdən yayındırırmış kimi görünən müxtəlif fikirlər hərəsi öz ipliyinin ucundan tutub əsas mahiyyətin başına dolanır. "Söz sözü gətirdi, mən də qələmin könlünə dəymədim. Sonunda yazan odur, mən deyiləm. Ürəyim diktə elədi amma..." müəllif özü belə deyir. Ürəyinin diktəsinə qulaq verən, sözün qəlbinə toxunmayan yazardır Təranə Arifqızı – həm mövzu seçimi, həm yazı üslubu etibarilə.

Sözün başlanğıcı varsa da, sonu yoxdur; hər bir oxuda fərqli mənalara və mənalandırmalara açıqdır. Söz ömrü oxucunun oxu təcrübəsindən qaynaqlanır. Mətn oxucuda nə qədər çox sual yarada bilirsə, müxtəlif, rəngarəng, bəzən bir-birindən xeyli uzaq cavablar alınır, beləcə, sözün ömrü uzanır. O bəzən, sadəcə, ilğım kimi bircə anda yanıb-sönən bir düşüncənin, bəzən isə daha geniş bir dünyagörüşün açarıdır. Təranə Arifqızının "Keçidlər" adını verdiyi topludakı yazılar da fərqli mövzulara dair fikirlər, müxtəlif vaxtlarda baş verənlərə refleksiyalar kimi reallaşaraq zamanın izlərini daşıyır və yalnız müəllifin fərdi təcrübələrindən deyil, eyni zamanda ətraf aləmlə qurulan münasibətlərdən doğulub. Məncə, bu kitabdakı janrından asılı olmayaraq, bütün mətnlər insan olmağın, bütün situasiyalarda insan qalmanın sonlanmayan təcrübəsini paylaşır.

**Mətanət VAHİD**
***filologiya üzrə fəlsəfə doktoru***

## Qarşısına məqsəd qoyan gəncin həkim olmaq arzusu gerçəyə çevrilib




Həyatda qarşıya çıxan çətinliklər bəzən insanı yolundan döndərsə də, əsl məqsədinə inanan, zəhmətlə çalışan və iradəsini ortaya qoyan kəs heç vaxt yarı yolda qalmaz. Haqqında söz açacağımız Arifə Hüseynova da uşaqlıqdan arzuladığı həkimlik peşəsinə sahib olmaq üçün qarşısına çıxan maneələrə baxmayaraq, özünə inanaraq yoluna davam edib. Belə ki, o, ötən il ali təhsil müəssisələrinə qəbul imtahanında istədiyi ixtisasa qəbul olmasa da, ümidini itirməyib. Qarşısına məqsəd qoyaraq daha ciddi hazırlaşaraq arzuladığı universitetə – Azərbaycan Tibb Universitetinə qəbul olmaqla uşaqlıq arzusunu gerçəkləşdirib.

Arifə ilə həmsöhbət olduğumuz zaman öyrənirik ki, o, dördüncü sinfi bitirdikdən sonra 647 balla Naxçıvan şəhərində yerləşən Qızlar Liseyinə qəbul olunub. Liseyi əla qiymətlərlə başa vuraraq qırmızı attestat alıb. "Uşaqlıqdan tək hədəfim həkimlik peşəsinə yiyələnmək olub", – deyə o bildirir.

2024-cü ildə keçirilən qəbul imtahanında 531 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Psixologiya ixtisasına qəbul olunub. Həmin il Naxçıvanda 500-700 bal aralığında nəticə göstərən məzunların mükafatlandırma tədbirində də iştirak edib. Lakin Arifə bununla kifayətlənməyib. Yenidən hazırlaşaraq 2025-ci ildə 635 bal toplayıb və Azərbaycan Tibb Universitetinə qəbul olunub.

"Ən böyük dəstəkçilərim valideynlərim və müəllimlərim olub", – deyən Arifə Hüseynova gənclərə də tövsiyə edir ki, məqsəd varsa, qarşıya qoyulan hədəfə çatmaq heç də çətin deyil.

Bu gün mənim həkim olmaq arzum gerçəyə çevrildi.

Beləliklə, uşaqlıq arzusuna çatmaqda ilk addımını atan Arifə Hüseynova bu gün Azərbaycan Tibb Universitetinin tələbəsi kimi yeni bir yola qədəm qoyub. Onun hədəfə doğru atdığı qətiyyətli addımlar gənclərin həyatında nümunədir. Biz də Arifəyə uğurlar arzu edirik!

## Naxçıvanlı şahmatçılar Malatyada uğur qazanıblar



Türkiyənin Malatya şəhərində "Altın Kayısı" beynəlxalq açıq şahmat turniri keçirilib. 8-ci dəfə təşkil olunan ənənəvi yarışda 11 ölkədən 96-sı xarici və 390-ı yerli olmaqla, ümumilikdə, 486 şahmatçı mübarizə aparıb.

Turnirdə Naxçıvan Muxtar Respublikasından 10 şahmatçı iştirak edib. Onlardan üçü uğurlu nəticəyə nail olub.

Yarışın A qrupunda çıxış edən Urfan Sevdimaliyev və Pərviz Qasımov ilk onluğa düşərək mükafatçılar sırasında yer alıblar. B qrupunda isə veteran şahmatçımız Bahəddin Hətəmov uğurla çıxış edərək 3-cü yerə layiq görülüb.

Qeyd edək ki, Türkiyənin Bitlis şəhərində start götürən "Betav Open" beynəlxalq turnirində də Naxçıvan şahmatçıları iştirak edir. Bu yarışda 20 idmançı ilə təmsil olunuruq.

# Azərbaycan millisində Naxçıvan boks məktəbinin imzası




Naxçıvan idmançılarının beynəlxalq arenalarda bir-birindən parlaq uğurlara imza atmaları artıq adət halını alıb. Əldə edilən uğurlu nəticələr yeniyetmə və gənclərin həm də idman sahəsinə axın etməsinə bilavasitə təsir göstərir. Naxçıvanlı yeniyetmə Haqverdi Həsənovun Çində təşkil olunan "Kəmər və yol" beynəlxalq turnirində baş mükafatı qazanması deyilənlərin bariz nümunəsidir.

O, Azərbaycan millisinin heyətində təlim-məşq toplanışında iştirak edib və Sincan-Uyğur Muxtar Rayonunda 19 ölkənin iştirak etdiyi nüfuzlu yarışda yığmamızın heyətində rinqə çıxıb. Naxçıvan boks məktəbinin yetirməsi, 63 kiloqram çəki dərəcəsində çıxış edən Haqverdi Həsənov bu yarışda böyük uğur qazanıb. Finala qədər rəqiblərini üstələyən idmançımız həlledici görüşdə qazaxıstanlı rəqibini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, məşqçi Elnur Kərimlinin yetirməsi olan Haqverdi Həsənov artıq idman ictimaiyyətinə yaxşı tanışdır. O, yeniyetmələr arasında Avropa üçüncüsü və Azərbaycan çempionu olmaqla yanaşı, həm də müxtəlif beynəlxalq turnirlərin qalibi və mükafatçısıdır.

Yeniyetmə dəri əlcək sahibi turnirlə bağlı təəssüratlarını bizimlə bölüşüb: "Bu turnir mənim üçün çox önəmli idi. Çünki həm Naxçıvanı, həm də, ümumilikdə, Azərbaycanı beynəlxalq arenada təmsil edirdim, üzərimdə böyük məsuliyyət hiss edirdim. Rəqiblərim güclü idi, xüsusən də finalda qarşılaşdığım qazaxıstanlı boksçu ilə döyüş çox gərgin və çətin keçdi. Amma hər dəfə rinqə çıxanda mənə olunan dəstəyi hiss etdim və bu mənə əlavə güc verdi".

Boksçumuz bildirib ki, bu uğuru qazanmaqda əsas dəstəyi ona məşqçisi və ailəsi göstərib: "Öz zəhmətimlə yanaşı, məşqçim Elnur Kərimlinin əməyini xüsusilə qeyd etmək istəyirəm. Onun dəstəyi və inamı olmasaydı, bu nəticəni qazanmaq daha çətin olardı. Hər məşqdə biz texniki hazırlıqla yanaşı, həm də əzmkarlığa, iradəyə önəm verdik. Həmçinin ailəm də mənim üçün böyük dayaq olub, onların mənə inandığını bilirdim. Bu qələbə mənim qədər onların da qələbəsidir".

**✍ Elnurə CƏFƏROVA**

# Naxçıvanın incisi Göygöl











Azərbaycan təbiəti saysız-hesabsız gözəlliklərlə zəngindir. Hər bölgəsində fərqli iqlim tiplərinə, bitki və heyvan növlərinə, dağlara, çaylara və göllərə rast gəlmək mümkündür. Bu təbii sərvətlər yalnız ekoloji əhəmiyyət daşımır, həm də xalqımızın mədəni irsinin bir hissəsini təşkil edir. Belə gözəlliklərdən biri də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində yerləşən Göygöldür. Bu göl təbiətin bənzərsiz bir əsəridir – saf mavi suları, ətrafındakı dağ mənzərəsi və toxunulmamış ekosistemi ilə hər kəsi valeh edir.

11 iyul 2025-ci il tarixdə UNESCO-nun Parisdə keçirilən 47-ci sessiyasında Azərbaycan tərəfindən təqdim olunmuş "Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi" Dünya İrsinin İlkin Siyahısına daxil edilib.

Göygöl Zəngəzur silsiləsinin cənub yamacındadır. Sahəsi 1,5 hektar, orta dərinliyi 6,5 metrə qədərdir. Nürgüt kəndi yaxınlığında yerləşən gölün suyu ilin bütün fəsillərində yağan qar və yağışdan, həmçinin gölün ortasında qaynayan bulaqlardan qidalanır. Vulkanik mənşəli bu göl dəniz səviyyəsindən, təqribən, 3000-3500 metr yüksəklikdə dağ ətəyində yerləşir. Kiçik Qafqazın ən hündür dağ gölü sayılır. Göygölün güzgü səthinin uzunluğu 211, eni 103, ən dərin yeri isə 7 metrdir.

Göygöl təbii mənşəli, soyuq sulu, şəffaf və sakit bir dağ göldür. Yay aylarında belə gölün suyu buz kimi sərin olur. Göl ətrafında yerləşən alp və subalp çəmənlikləri, qaya çıxıntıları, yaylaq əraziləri bu məkana xüsusi bir gözəllik bəxş edir. Dağ çiçəkləri, kəklikotu, yarpız kimi bitkilər gölün ətrafını əsl təbiət bağçasına çevirir.

Göygöl yalnız bitkilərlə deyil, zəngin heyvanat aləmi ilə də diqqət çəkir. Göl və ətraf dağlıq sahələrdə cüyürlərə, dağ keçilərinə, tülkülərə, qartallara, kəklik və qırqovul kimi quşlara tez-tez rast gəlinir. Bu bölgə həm də nadir və qorunan heyvan növlərinin sığınacağı sayılır.

Alp və subalp çəmənlikləri yay otlağı və biçənək kimi istifadə edildiyindən qeyri-müntəzəm təsərrüfat təsirlərinə məruz qalır. Bu landşaft vahidləri yay aylarında maksimum antropogen yükləməyə məruz qaldığı halda, qış aylarında ekstremal iqlim şəraiti ilə əlaqədar olaraq antropogen təsirlərdən tam azad olur, sanki təbii landşaftlar "istirahət" edir. Subalp çəmənliklərinin əksəriyyəti həm biçənək, həm də otlaq kimi, alp çəmənləri isə yalnız otlaq kimi istifadə edilir.

Ərazinin alp çəmənliklərinin yuxarı sərhəddinin çox hissəsi qarla örtülü olur. Ondan aşağıda isə subalp çəmənliyi qurşağı yerləşir. Alp çəmənlikləri qurşağının hündürlüyü dağların yerləşdiyi ərazinin coğrafi enliyindən, iqlimindən və yamacların istiqamətlənməsindən asılıdır. Buna görə Göygöl ərazisində eyni vaxtda dörd mövsümü müşahidə etmək olur.

Göygölün təbiətinin bu dərəcədə müxtəlif olması, bitkiliyin də zəngin olmasına səbəb olur. Burada dağ qərənfili, alp əvəliyi, kül çiçəyi, sürünən qaymaqçiçəyi, çəmənlik ürəkotu və sair bitkilərə rast gəlinir. Təbiətindən asılı olaraq burada yalnız ot bitkiləri bitir. Həmçinin bu bitkilərə ən çox su sahilində rast gəlmək olur. Onu da qeyd edim ki, burada cillər və cığlara da rast gəlmək mümkündür.

Bitkilərin çoxu su sahilində bitsələr də ərazidə, demək olar ki, bataqlıqlaşmaya rast gəlinmir. Sadəcə, az miqdarda torf örtüyü vardır. Bu da ərazidə temperaturun daha yüksək olmamasından asılıdır.

Göygöl həm təbii gözəlliyi, həm də ətraf mühitin qorunması baxımından böyük əhəmiyyətə malikdir. Burada insan müdaxiləsi minimum səviyyədədir. Yay aylarında bölgəyə gələn köçərilər təbiətlə ahəng içində yaşayır, əraziyə zərər vermədən təsərrüfatları ilə məşğul olurlar.

Yay aylarında bu yerlərə gələn heyvandarlıqla məşğul olan ailələr həm təsərrüfatları ilə məşğul olur, həm də təbiətin qoynunda sakit həyat sürürlər. Bu da Göygölün və ətrafının mədəni dəyərini artırır.

Son illərdə bölgəyə maraq artdığı üçün Göygöl və ətraf ərazilər ekoturizm və dağ turizmi baxımından da diqqət çəkir. Buraya gələn qonaqlar təmiz hava, təbii mənzərə və sakitliklə bərabər, Azərbaycan təbiətinin incisini görmək fürsəti əldə edirlər.

Bu cür təbii sərvətlər bizim mədəni və ekoloji irsimizin bir hissəsidir. Ordubadın Göygölü də bizə göstərir ki, vətənimizin hər guşəsində qorunmalı və qiymətləndirilməli bir təbii xəzinə var. Bu gözəllikləri qorumaq və gələcək nəsillərə ötürmək bizim əsas vəzifəmizdir.

**✍ Turan MƏMMƏDLİ**
***biologiya üzrə fəlsəfə doktoru***

## Elan

***Hərracın təşkilatçısı:*** "Daşınar və Daşınmaz Əmlakların Satışı Üzrə Hərrac Mərkəzi" MMC

***Hərracın keçirilmə yeri:*** Naxçıvan şəhəri, Tumbul kəndi TIR parkı.

***Hərracın keçirilmə vaxtı:*** 11 sentyabr 2025-ci il, saat 11$^{00}$.

***Sifarişçi:*** Yeni Azərbaycan Partiyasının Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur rayon təşkilatları.

***Hərraca çıxarılan əmlaklar (minik avtomobilləri) və onların ilkin satış qiyməti:*** 1. "VAZ 21214" – 2100,00 manat, 2. "CHEVROLET NİVA 2123" – 2200,00 manat, 3. "CHEVROLET NİVA 212300" – 2000,00 manat, 4. "NAZLİFAN LF7182D-650" – 10000,00 manat, 5. "NAZLİFAN LF7130 A 520" – 1000,00 manat, 6. "CHEVROLET NİVA" – 2200,00 manat, 7. "CHEVROLET NİVA 212300 GLS" – 2200,00 manat.

***Qeyd:*** Maraqlanan şəxslər 10 sentyabr 2025-ci il, saat 18$^{00}$-dək qeydiyyatdan keçməklə və əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğini beh olaraq hərrac təşkilatçısının hesablaşma hesabına ("Kapital Bank" ASC, VÖEN 1500258411, M/H AZ37NABZ01350100000000001944, S.W.I.F.T. AIIBAZ2X, IBAN: AZ61AİİB38030019443905481109) ödəməklə hərraca qoşula bilərlər. Beh məbləği hərrac başa çatdıqdan sonra geri qaytarılacaqdır. Hərracı udmuş şəxs tərəfindən müvafiq əmlakın satış qiyməti sifarişçinin bank hesabına, 250 (iki yüz əlli) manat xidmət haqqı isə yuxarıda qeyd olunan bank hesabına ödənilməlidir.

***Əlaqə telefon nömrəsi:*** (077) 574-36-53.

## İtmişdir

"Asya Ticarət" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN-1405584441) məxsus möhür itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kəndində yerləşən Hüseynov Yaşar Məmməd oğluna məxsus olan JN-765$^{A}$ və JN-765$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kənd sakini Şükürov Saleh Hüseyn oğluna məxsus JN-173 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Stansiya Daşarx kənd sakini İsmayılov Akif Adil oğluna məxsus JN-441$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhəri, Mənsur Ağa küçəsi, döngə 2, ev 4 ünvanında yerləşən Babayeva Balabəyim Səttar qızı və ailə üzvlərinin adına olan fərdi yaşayış evinə məxsus 101 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Mustafayev İlham Səməd oğlunun adına olan VAZ-2107 markalı 85 BK 400 dövlət nömrəli nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

"Ümid-74" MTK-ya verilmiş A-023678 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 48-ci məhəllə 1/2 ünvanda, "Ümid-74" mənzil tikinti kooperativinə verilmiş A-023878 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Tağıyev Allahverdi Qurban oğlunun adına olan JN-594$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Tağıyev Mehman Allahverdi oğlunun adına olan JN-402 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkəndində yaşamış Kərimova Əpruz Əli qızının adına olan fərdi yaşayış evinin 102013002996-10301 reyestr nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kəndində Əhmədov Yusif Mənaf oğlunun adına olan 1944 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini İsmayılova Rübabə Səfər qızının adına olan JN-333$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kənd sakini Heydərov Sahil Zöhrab oğlunun adına olan JN-228 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xələc kəndində yaşamış Heydərov Zöhrab Seyfəli oğlunun adına verilmiş JN-229 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Cəfərli Səid Möhsün oğlunun adına olan Şərur rayon Şəhriyar kəndində yerləşən torpaq sahəsinin AA-004271 inventar nömrəli 29.06.2010-cu il tarixli planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Seyidov M.Yaqub M.Heydər oğlunun adına olan JN-126$^{A}$ nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Cəfərov Əsrafil Cəlal oğlunun adına olan JN-156$^{A}$ nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

## Bildiriş

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı Xarici İşlər İdarəsinin 1 sentyabr 2025-ci il tarixli 28-09/838 nömrəli məktubuna əsasən idarənin balansında olan 2019-cu il buraxılışlı, 70-AA-111 dövlət nömrə nişanlı, "NAZ LİFAN LF 820" markalı minik avtomobilinin özəlləşdirilməsi ilə bağlı proses dayandırılmışdır.

ŞƏRQ QAPISI
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 650. Sifariş № 229
Nömrəyə məsul: Ramiyə Əkbərova, Turan Məmmədli, Zəhra Vəliyeva
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.